Bu bir xalq qəzetidi

ƏDALƏT

## XİN sözçüsü: İran Azərbaycanla əlaqələri inkişaf etdirməkdə heç bir sərhəd tanımır



**İran Azərbaycanla münasibətləri inkişaf etdirmək istiqamətində heç bir sərhəd tanımır.**

Bunu İranın Xarici İşlər Nazirliyinin (XİN) sözçüsü Səid Xətibzadə mətbuat konfransında deyib. Onun sözlərinə görə, elə bu məqsədlə İran yüksək səviyyəli diplomatını səfir olaraq Azərbaycana göndərib.

Xətibzadə əlavə edib ki, İran, Türkiyə və Azərbaycan arasında üçtərəfli görüşün təşkil olunması ilə əlaqədar müzakirələr aparılır.

Qeyd edək ki, İranın Azərbaycandakı hazırkı səfiri Abbas Musəvi bundan öncə İranın Xarici İşlər Nazirliyinin mətbuat katibi olub.

## AXIR Kİ, HOVUZA SU BURAXDILAR



**Ayın 8-dən rayonlara gediş-gəlişə icazə verilir. Çox vacib bir qərar idi. Alqışlayırıq.**

Ümumiyyətlə, son zamanlar ölkəmizdə həyat öz axarına düşməkdədi. Buna da səbəb dövlətin COVİD19-la apardığı qətiyyətli mübarizənin müsbət cəhətləridi.

Amma hələ arxayınlaşmaq olmaz. Pandemiya dünyada cövlan etməkdədi. Heç uzağa getməyək, yumşalmalar Türkiyədə əks nəticə verib - həm ölənlərin sayı artıb, həm də yoluxanların. Eləcə də İranda. Yəni iki qonşu ölkəmizi misal gətirirəm. Səbəb də qanunlara riayət etməmək.

İndi bizdə də bir çox yumşalmalara gedildi və gedilir. Nəticədə həyat öz axarına düşüb.

**Sərt karantin rejiminə yenidən düşməmək üçün, yəni hovuzdakı suyun qurumaması üçün daha diqqətli olmalı, qanunlara ciddi əməl etməliyik.**

Aqil ABBAS

## Ombudsman Tofiq Yaqubluya baş çəkib

*Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 3 saylı İstintaq Təcridxanasına əvvəlcədən xəbərdarlıq etmədən başçəkmə həyata keçirib.*

*Bu barədə Adalet.az-a Ombudsman Aparatından məlumat verilib.*

*Bildirilib ki, BMT-nin İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyasının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmə zamanı bu müəssisədə saxlanma şəraiti, rəftar məsələləri, qidalanma, tibbi yardım və digər hüquqların təmin olunması vəziyyəti araşdırılıb.*

*Başçəkmə çərçivəsində müəssisədə saxlanılan bir neçə şəxs, o cümlədən qida qəbulundan imtina etməsi ilə bağlı barəsində məlumat yayılmış Tofiq Yaqublu konfidensial qaydada qəbul olunub.*

*Qəbulda T.Yaqublu barəsində olan cinayət işi və məhkəmə qərarından narazılığını əsas göstərərək bu addımı atdığını qeyd edib. Ombudsmanın Milli Preventiv Qrupunun (MPQ) həkim üzvünün də iştirak etdiyi qəbul zamanı ona səhhətində ciddi problem yaşamaması üçün qida qəbulunu bərpa etməsi ilə bağlı, müəssisə və tibbi-sanitar hissə rəhbərliyinə isə onun səhhətinin həkim nəzarətində saxlanılması məqsədilə müvafiq tövsiyələr verilib.*

*Qəbul çərçivəsində saxlanılan şəxslərə Ombudsmanın səlahiyyətləri barədə məlumat və qaldırdıqları məsələlər üzrə hüquqi məsləhətlər verilib, ərizələri qəbul olunub, bir sıra müraciətlər yerində təmin edilib.*

*Başçəkmənin nəticəsi ilə bağlı aidiyyəti dövlət qurumlarına müraciət olunacaq.*

## "MİLLİYYƏT" QƏZETİNİN BAŞINDAN BÖYÜK QƏLƏTİ







**Tədqiqatçı alim Elnur Eltürkün bir statusunu olduğu kimi təqdim edirik: "Türkiyənin "Milliyyət" qəzeti təxribata əl atıb. Separatçı Qarabağ rejimini Dağlıq Qarabağ Respublikası kimi təqdim edib. Türkiyə-Azərbaycan münasibətlərinin yüksək inkişaf etdiyi ərəfədə, xüsusilə, birgə hərbi təlimlərin keçirildiyi vaxtlarda belə bir ciddi və təxribatçı addımın atılması təsadüfi sayıla bilməz. Qəzet yanlışlığı aradan qaldırmalı və üzr istəməlidi".**

Dostum Elnur, sizi çox ciddi bir tədqiqatçı kimi tanıyıram. Əgər bir araşdırma aparsanız görərsiniz ki, Türkiyənin üzdə olan bir neçə qəzetini ("Sözçü", "Cümhuriyyət", "Yeni çağ") çıxmaq şərtilə əksəriyyəti adları türk olan qeyri-türklərin əlindədi. Türkiyə mətbuatının Xruşşovun dili ilə desək, bir möhkəm kisələnməyə ehtiyacı var. Və belə təxribatlar görülən işlərə kölgə sala bilməz, sadəcə olaraq, milçək kimi ürək bulandırar.

Bu bir xalq qəzetidi

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ildən iyulundan çıxır | № 123 (5783) 8 sentyabr 2020-ci il | Qiyməti 30 qəpik

## HÜLUSİ AKAR DÜNYAYA MEYDAN OXUDU







**Türkiyəyə göz dağı vermək üçün ABŞ, Almaniya, Fransa, İngiltərə, İtaliya, Yunanıstan, Misir, Birləşmiş Ərəb Əmirlikləri və daha hansı kərtənkələlər Aralıq dənizində birgə təlim keçirlər.**

Qardaş ölkənin müdafiə naziri Hülusi Akar oturub F-16-ya, özü də tək, təlim keçirilən ərazidə düz 3 saat Türkiyəyə göz dağı vermək istəyənlərə göz dağı verib.

# Prezident 251 nömrəli məktəbin açılışını etdi



Bax:səh-2

## Dağlıq Qarabağın azərbaycanlı icması ASAN Radio ilə birgə yeni layihəyə start verir



**Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması ASAN Radio ilə birgə yeni layihəyə start verir.**

İcmadan Adalet.az-a verilən məlumata görə, layihə "Qarabağnamə" adlanır. Həftədə bir dəfə ASAN Radio 100 FM dalğasında efirə gedəcək "Qarabağnamə" Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının beynəlxalq məsələlər şöbəsinin müdiri Aybəniz İsmayılovanın təqdimatında efirə gedəcək. İcmanın ilk radio layihəsi olan "Qarabağnamə" Ermənistan tərəfindən məhv edilən tarixi, mədəni, dini irsimizin təbliği məsələlərini diqqətdə saxlayacaq. Rəngarəng rublikalarla dinləyicilərin görüşünə gələcək "Qarabağnamə" verlişində qaçqın və məcburi köçkünlərin qayğıları və Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının fəaliyyəti ilə bağlı yenliklər də dinləyiçilərin diqqətinə təqdim ediləcək.

## Oğuz Altay: BNA koronavirusun yayılmasında birbaşa iştirak edir



**BNA koronavirusun yayılmasında birbaşa iştirak edir. Paytaxtda ödəmə terminalı tapılmır ki, insanlar rahat şəkildə kartına pul qoysun. Ona görə də olan qalan bir-iki terminalın qarşısında basabasdı. Əsl virus üçün münbit şəraitdi. Bu biabırçılığa nə zaman son qoyulacaq?**

## İranlı əczaçılardan xəbərdarlıq

**İranda əczaçılar və dərman idxalçıları ölkənin Səhiyyə naziri Səid Nəmakini ilə görüşkeçirib.**

Onlar qeyd edib ki, dərman idxalı üçün valyuta təmin edilməzsə, vəziyyət kritik olacaq və ölkə dərman çatışmazlığı ilə üzləşəcək. Bildirilib ki, hazırda İranda dərman çatışmazlığı bir neçə aydır hiss olunur. Diabet xəstələri insulin axtarır. Böyrək xəstələri də eyni vəziyyətdədir; "Cellcept" tabletləri apteklərdə mövcud deyil və yerli istehsal da xəstələrin ehtiyaclarını ödəmir. Qeyd edək ki, Səhiyyə Nazirliyinin rəsmi saytının məlumatına görə, bu il sentyabr ayının əvvəlinədək hökumət dərman və tibbi avadanlıqların ölkəyə idxalı məqsədilə 969 milyon dollar vəsait ayırıb. Bu da bir il əvvəlki dövrlə müqayisədə 43 faiz azdır. Ölkəyə dərman idxalı məqsədilə dövlət büdcəsindən ayrılan vəsaitin azalması bu ilin may ayının əvvəlindən hökumətin gündəliyindədir.

## ALİMPAŞA MƏMMƏDOVUN DİVARA DİRƏNMİŞ ŞƏKLİNİ GÖRMƏDİK



**Şəmkirin icra başçısı bir yas mərasimində yasa gələnləri divara dirəmişdi, dişinin dibindən çıxanları da dedi.**

İndi özü kef məclisi açır. Yazırlar ki, guya cərimə olunub. Amma cərimə olunanların divara dirənmiş şəkillərini mətbuatda yayırlar. Alimpaşa müəllimin divara dirənmiş şəklini görən oldumu?!

## İsraildə komendant saatı elan edildi

**İsrail hökuməti epidemioloji vəziyyətin pisləşməsinə görə ölkədə komendant saatı elan edib.**

"Jeruselam Post" xəbər verir ki, bu gündən etibarən ölkənin 40 şəhərində saat 19:00-dan 5:00-a qədər komendant saatı tətbiq olunacaq.

Bu müddətdə bütün müəssisələr və qeyri-ərzaq mağazaları bağlı qalacaq. Qida məhsulları mağazaları, aptek və xəstəxanalar fəaliyyətini davam etdirəcək.

Xüsusi təhsil müəssisələrindən başqa bütün məktəblər və universitetlərin də bağlandığı bildirilir.

## Oxucuların nəzərinə!

***Pandemiya ilə əlaqədar sərt karantin rejimi uzadıldığına görə qəzetimiz bu ay həftədə 3 dəfə - 2, 4, 6-cı günlər çap olunacaq. Buna görə oxucularımızdan üzr istəyirik.***



*Bəybala Quliyev Qarabağ qazisidir. Ağdam uğrunda gedən döyüşlərdə iştirak edib. 4 övlad atasıdır. Yaşaması üçün son bir ayı qalıb. Vəsait yığılmasa, həyatla vidalaşa bilər. Bu ayda onun üçün 68 min dollar (115 min manat) pul yığılmalıdır. Kiçik uşağının 8 yaşı var. Bəybala bəy ilik xərçəngidir. Ona təcili Türkiyədə ilik köçürülməlidi. Donoru öz qardaşıdır. Hərəmiz 1 manat köməklə həmin vəsaiti yığa bilərik. Xahiş edirik, yardımınızı əsirgəməyin. Əlaqə saxlamaq üçün 070 898 50 10 nömrəsini yığa bilərsiniz. Qazilər yaşayan şəhidlərdir, yaşadaq.*




## "Semaşko"da 38 yaşlı xarici vətəndaş koronavirusdan öldü

**Bakıda Qazaxıstan vətəndaşı 38 yaşlı Dastan Toktasınovun halı pisləşdiyi üçün 1 saylı Kliniki Tibbi Mərkəzə ("Semaşko") aparılıb.**

"Report" xəbər verir ki, pasiyent xəstəxanada tənəffüs çatışmazlığından vəfat edib. Faktla bağlı Nəsimi Rayon Prokurorluğunda araşdırma aparılır. Xarici vətəndaşın COVID-19-a yoluxduğu ehtimal edilir. Belə ki, hazırda 1 saylı Kliniki Tibbi Mərkəz yalnız koronavirus xəstələrini qəbul edir.

## Nazirlik vətəndaşların qəbulunu sentyabrın 30-dək dayandırıb

*Ölkə ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması barədə müvafiq qərara uyğun olaraq, Təhsil Nazirliyinin Vətəndaşların Qəbulu Mərkəzi 2020-ci il sentyabrın 30-dək fəaliyyətini dayandırıb.*

*Nazirlikdən Adalet.az-a verilən məlumata görə, təhsil sahəsində dövlət xidmətlərinin göstərilməsini təmin etmək üçün bu dövr ərzində müraciətlər 146-1 Telefon Məlumat Mərkəzi vasitəsilə cavablandırılacaq. Vətəndaşlar həmçinin Nazirliyin rəsmi office@edu.gov.az elektron poçt ünvanına müraciət edə və elektron resurslarında (www.edu.gov.az; www.ict.edu.az) təqdim edilən müxtəlif e-xidmətlərdən yararlana bilərlər.*

*Rəsmi məlumatları Təhsil Nazirliyinin internet saytı (www.edu.gov.az) və sosial şəbəkələrdəki səhifələrindən izləmək tövsiyə edilir.*

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

# UDUZMAĞIMIZIN 40 SƏBƏBİ VAR



**Məşhur anekdotdu. Şah deyir, məni qarşılayanda niyə toplardan atəş açmadınız? Vəzir deyir:**
- **Şahım, bunun qırx səbəbi var.**
- **Say görüm.**
- **Birincisi, barıt yoxdu.**
- **Day qalanını saymasan da olar.**

**İndi baxıram Lüksemburqa evimizin içində məğlub olmağımızın bütün günahını Mahir Əmirəlinin üstünə atırlar. Mahir Əmirəli çox ciddi səhvə yol verdi və 26-cı dəqiqədə komandanı pis vəziyyətdə qoydu.**

(Ardı 2-ci səhifədə)

## GÜNÜN LƏTİFƏSİ

Canavar görür ki, dovşan oturub nəsə yazır.
- Dovşan, nə yazırsan belə?
- **Diplom işi.**
- Hansı mövzuda?
- **Dovşanlar canavarları necə yeyir.**
- Sən nə danışırsan?! Qudurmusan, çəpgöz? Gəl o kolluğa gedək, aydınlaşdıraq kim kimi yeyir!
- **Yaxşı, amma gəl bu biri kolluğa gedək.**

Gedirlər, orda isə ayı. Ayı canavarı götürür, bükük verir gülümsəyən dovşana.

**-Yadında saxla, boz canavar, əsas mövzu deyil, əsas odur ki, elmi rəhbərin kimdir!**

# Prezident 251 nömrəli məktəbin açılışını etdi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də paytaxtın Nizami rayonunda 251 nömrəli tam orta məktəbdə aparılan əsaslı təmir işləri ilə tanış olub, bu təhsil ocağının yeni korpusunun açılışında iştirak edib.**

Adalet.az xəbər verir ki, dövlətimizin başçısına məktəbdə yaradılan şərait barədə məlumat verilib. Bildirilib ki, 1974-cü ildən fəaliyyətdə olan məktəbdə ümumilikdə 1700-ə yaxın şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 100-ə yaxın müəllim məşğul olur. Şagirdlərin təxminən yarısı ikinci növbədə dərsə gəlirdi. Böyük sıxlıq var idi. Yeni korpus bu problemi aradan qaldıracaq.

Dördmərtəbəli yeni korpus 840 şagird yerlikdir. Burada kimya, fizika, biologiya laboratoriyaları, 35 sinif otağı, hərbi kabinet, kitabxana, oxu zalı və yardımçı otaqlar var. Bütün otaqlar elektron vasitələrlə və proyektorlarla təchiz olunub.

Məktəbin şagirdləri də uğurları ilə fərqlənirlər. Onlar Rumıniyada, Türkiyədə keçirilən müsabiqələrin qalibləri olublar.

Təhsil ocağı ilə tanışlıqdan sonra Prezident İlham Əliyev məktəbin direktoru Aygün Əzizovaya deyib:

"Şagirdlərə və valideynlərə mənim salamımı çatdırın".

Prezident İlham Əliyevin 251 nömrəli məktəblə tanışlığı təkcə təhsil ocağının kollektivi üçün deyil, ətrafda yaşayan sakinlər üçün də yaddaqalan olub. Yaxınlıqdakı çoxmərtəbəli binanın sakinləri mənzillərinin eyvanlarından dövlətimizin başçısını salamlayıblar.

Beləliklə, növbəti məktəbin infrastrukturunun tamamilə yenilənməsi Azərbaycanda təhsilin inkişafına göstərilən diqqət və qayğının daha bir təzahürüdür.

# *Hikmət Hacıyev: Azərbaycan ilə Türkiyə "Bir millət, iki dövlət" şüarı ilə hər zaman bir-birinin yanındadır*

**Azərbaycan ilə Türkiyə "Bir millət, iki dövlət" şüarı ilə hər zaman bir-birinin yanındadır. Qardaş Türkiyənin iqtisadiyyatdan xarici siyasətədək hər sahədə əldə etdiyi uğurlara Azərbaycan ürəkdən sevinir. Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi, ilk növbədə, hər iki ölkənin qardaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə xidmət göstərir. Bu baxımdan hər iki ölkənin dövlət və özəl media qurumlarının yaxın əməkdaşlığı bu əlaqələrin daha da güclənməsinə əhəmiyyətli dərəcədə fayda verəcək.**

Bu fikirləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İstanbulda



Türkiyə Prezidenti Administrasiyasının İctimaiyyətlə əlaqələr idarəsinin rəhbəri Fəxrəddin Altun və bir sıra dövlət və media qurumlarının rəhbər şəxsləri ilə görüşündə bildirib.

Hikmət Hacıyev televiziyadan kino sektorunadək bütün sahələr üzrə birgə layihələrin həyata keçirilməsinin, mütəxəssis mübadilə proqramlarının hazırlanmasının, eləcə də texnologiya sahəsində əməkdaşlığın hər iki ölkəyə qarşı həyata keçirilən qaralama kampaniyası ilə mübarizədə də əhəmiyyətli rol oynayacağını bildirib.

Dünən olduğu kimi, bu gün də Türkiyə ilə Azərbaycanın "bir millər, iki dövlət" şüarı altında hərəkət etdiyini, prezidentlər Rəcəb Tayyib Ərdoğan və İlham Əliyevin bu anlayışı sadəcə sözdə deyil, əməldə də dünyaya nümayiş etdirdiklərini deyən Fəxrəddin Altun bütün sahələr üzrə əlaqələrin, o cümlədən beynəlxalq və regional mövzularda iki ölkənin qurumları arasında əməkdaşlığın daha da gücləndirilməsinin vacibliyini vurğulayıb. F.Altun ölkələrimiz arasında qardaşlıq əlaqələrinin son illər artan əməkdaşlıq layihələri ilə daha da möhkəmləndiyini bildirib.

O, Türkiyə ilə Azərbaycan arasında media əlaqələri və ictimai diplomatiya sahəsində əməkdaşlığın genişləndirilməsinin, bu sahələrdəki imkanların birləşdirilməsinin hər iki ölkə üçün mühüm rol oynadığı diqqətə çatdırıb.

Xatırladaq ki, Azərbaycan nümayəndə heyətinin Türkiyəyə səfərinin əsas məqsədi Azərbaycanla Türkiyə arasında birgə media platforması yaratmaq, xəbər, mütəxəssis və fikir mübadiləsini həyata keçirmək, o cümlədən hər iki ölkənin sosial media vasitəsilə dünyada daha yaxından tanıdılmasını genişləndirməkdir.

Nümayəndə heyətinin tərkibinə Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin informasiya təminatı sektorunun rəhbəri Fərhad Əmirbəyov, Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) İdarə Heyətinin sədri Aslan Aslanov, Milli Televiziya və Radio Şurasının sədri İsmət Səttarov, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rövşən Məmmədov, İctimai Televiziya və Radio Yayımları Şirkətinin (İTV) baş direktoru Balakişi Qasımov daxildir.

**Nümayəndə heyətini Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim və ölkəmizin İstanbuldaki baş konsulu Nərminə Mustafayeva müşayiət edirlər.**

# Yeni qanun layihəsi hazırlanacaq - Komitə təsdiq etdi

**Sentyabrın 7-də Milli Məclisin Elm və təhsil komitəsinin onlayn iclası keçirilib.**

Milli Məclisdən Adalet.az-a verilən məlumata görə, onlayn iclası idarə edən komitə sədri Bəxtiyar Əliyev həmkarlarına qarşıdan gələn payız sessiyasında uğurlar arzulayıb.

Sonra 2020-ci ilin payız sessiyası üçün komitənin qanunvericilik işləri planı müzakirə edilib. B.Əliyev payız sessiyasında baxılması nəzərdə tutulan məsələlər barədə danışıb. Qeyd edilib ki, qarşıdakı sessiyada komitədə "Ali təhsil haqqında" qanun layihəsi hazırlanacaq, digər vacib qanunlar üzərində iş davam etdiriləcək. İclasda komitənin iş planı təsdiqlənib.

Sonra komitəsədri "Təhsil haqqında" qanunda dəyişiklik edilməsi barədə sənədlə əlaqədar məlumatı birinci oxunuşda diqqətə çatdırıb.

Qanun layihəsinin "Övladlığagötürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" dövlətbaşçısının 2018-ci il 10 dekabr tarixli Fərmanına uyğun olaraq hazırlandığını deyib. Sənədin valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsinin stimullaşdırılması məqsədi daşıdığını vurğulayıb. Bildirilib ki, təklif olunan qanuna əsasən övladlığa götürülmüş uşaqların dövlət, bələdiyyə, özəl ali və orta ixtisas təhsili müəssisələrində, magistratura səviyyəsində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi nəzərdə tutulur.



Onlayn iclasda Əmək Məcəlləsində, "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Təhsil haqqında", "Məktəbəqədər təhsil haqqında", "Peşə təhsili haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Ümumi təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri də birinci oxunuşda müzakirə edilib.

Bildirildi ki, sözügedən sənədlərə təklif olunan dəyişikliklər 12 iyun 2018-ci il tarixli və "Ümumi təhsil haqqında" 29 mart 2019-cu il tarixli qanunlara uyğunlaşdırma xarakteri daşıyır. Yeni sənədin pedaqoji fəaliyyətlə məşğul olmaq hüququ olmayan şəxslərlə əmək müqavilələrinin bağlanmasına yol verilməməsi, bağlanmış müqavilələrə xitam verilməsi mexanizmləri, təsisçisi əcnəbilər, vətəndaşlığı olmayan şəxslər və ya xarici hüquqi şəxslər olan təhsil müəssisəsi rəhbərinin müavininin Azərbaycan vətəndaşı olması, ümumi təhsillə bağlı normaların təkmilləşdirilməsi, günüuzadılmış qrupların təşkili qaydalarını müəyyən edəcək.

Sonra onlayn iclasda İnzibati Xətalar Məcəlləsində edilən dəyişikliklərə birinci oxunuşda baxıldı.

Bildirilib ki, qanun layihəsi "Ümumi təhsil haqqında" qanunun icrası ilə əlaqədar hazırlanıb. Qanunla pedaqoji fəaliyyətlə məşğul olması qadağan edilən şəxslərlə pedaqoji fəaliyyətlə məşğul olmaq üçün əmək müqaviləsinin bağlanılmasına görə məsuliyyəti tənzimləyir.

**Onlayn iclasın sonunda müzakirəedilən qanun layihələrinin Milli Məclisin plenar iclasına tövsiyə edilməsi qərara alınıb.**

# *Azərbaycanda iki vəzifəli şəxs barəsində cinayət işi başlandı*

**Azərbaycan Respublikasında əmək və əhalinin sosial müdafiəsi sferasının müasir tələblərə uyğunlaşdırılması, əhalinin sosial təminatının gücləndirilməsi, onların rifah səviyyəsinin yaxşılaşdırılması istiqamətində ölkə rəhbərliyi tərəfindən ardıcıl və məqsədyönlü islahatların həyata keçirilməsinə baxmayaraq, ayrı-ayrı vəzifəli şəxslər tərəfindən qeyd edilən sahədə vətəndaşlarla dövlət arasında olan nizamlı ictimai münasibətlərə qəsd edən qanunsuz hərəkətlərə də təsadüf olunur ki, belə halların aşkara çıxarılaraq kəsərli təsir tədbirlərinin görülməsi istiqamətində Azərbaycan Respublikasının prokurorluq orqanlarının intensiv fəaliyyəti davam etdirilir.**

Baş Prokurorluqla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən Adalet.az-a daxil olan birgə məlumatda bildirilir ki, belə tədbirlərdən biri kimi, 1 saylı Respublika Psixiatriya xəstəxanasının 16-cı şöbəsinin müdiri Səriyyə Tanverdiyevanın öz xidməti vəzifələrinin icrası ilə əlaqədar qanunsuz hərəkətə görə vətəndaşdan rüşvət tələb etməsi barədə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə daxil olmuş məlumat əsasında təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri həyata keçirilib.

Keçirilmiş tədbirlər nəticəsində Səriyyə Tanverdiyevanın əlillik dərəcəsinin təyin edilməsinə əsas olan saxta epikrizin təqdim edilməsi müqabilində vətəndaşdan müvafiq olaraq 2020-ci ilin 2 iyun və 5 avqust tarixlərində xəstəxananın inzibati binasında ümumilikdə 600 manat məbləğdə pul vəsaitini almasına əsaslı şübhələr müəyyən edilib.



Bununla yanaşı, həyata keçirilmiş qeyd edilən operativ tədbirlərin davamı olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin 5 nömrəli Tibbi-sosial ekspert komissiyasının sədri Katib Məmmədovun həmin vətəndaşdan 2-ci qrup əlillik dərəcəsinin təyin edilməsi müqabilində 2020-ci ilin avqust ayında 3000 manat məbləğdə pul vəsaitini rüşvət qismində istəyib, 2 sentyabr 2020-ci il tarixdə işlədiyi müəssisənin inzibati binasında həmin pulun 2300 manat olan hissəsini rüşvət qismində almasına əsaslı şübhələr müəyyən edilib.

Göstərilən faktlara görə Baş İdarədə Cinayət Məcəlləsinin 311.2 (vəzifəli şəxs tərəfindən qanunsuz hərəkətlərə görə rüşvət alma) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanıb.

İstintaq zamanı toplanmış ilkin sübutlara əsasən Katib Məmmədov şübhəli şəxs qismində tutulmuş, 5 sentyabr 2020-ci il tarixdə o, Cinayət Məcəlləsinin 311.2-ci maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri, habelə, 5 sentyabr 2020-ci il tarixdə Səriyyə Tanverdiyeva Cinayət Məcəlləsinin 311.2 və 313-cü maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilib.

**Hazırda cinayət işi üzrə əhəmiyyət kəsb edən halların, cinayətlərin törədilməsində hər hansı formada iştirak etmiş digər şəxslərin müəyyənləşdirilməsi istiqamətində intensiv istintaq-əməliyyat tədbirləri davam etdirilir.**

# Ukrayna səmasında "Qarabağ Azərbaycandır!" şüarı nümayiş etdirilib

**Ukraynada "Qarabağ Azərbaycandır!" şüarı ilə maraqlı aksiya təşkil edilib.**

Diasporla İş üzrə Dövlət Komitəsindən Adalet.az-a verilən məlumata görə, Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporunun təşəbbüsü və təşkilatçılığı ilə gerçəkləşdirilən aksiya zamanı üzərində "Qarabağ Azərbaycandır!" şüarı yazılan hava şarı səmaya qaldırılıb. Hava şarını Kiyev və Jitomir şəhərlərindən, eləcə də ətraf ərazilərdən müşahidə etmək mümkün olub. UABD sədri Hikmət Cavadov bildirib ki, aksiyanı keçirməkdə məqsəd yerli ictimaiyyətə Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətləri çatdırmaqdır və bu cür aksiyaların davamlı olaraq təşkil edilməsi nəzərdə tutulur.

Bir saatdan çox davam edən aksiya zamanı üzərində "Qarabağ Azərbaycandır!" yazılan hava şarı səmada dövr edib.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019-cu il oktyabrın 4-də Soçi şəhərində keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında "Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır.

**Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi!" bəyanatı ilə çıxış edib. Dövlət başçısının bu bəyanatından sonra "Qarabağ Azərbaycandır!" ifadəsi xaricdə yaşayan soydaşlarımızın keçirdikləri bütün aksiyaların əsas şüarlarından birinə çevrilib.**

# *RUSİYA-QƏRB QARŞIDURMASI*

**Münaqişə tərəflərdən birinin məhv olmasına gətirib çıxara bilər. Qərbin kütləvi informasiya mənbələri Rusiyaya qarşı təbliğat kampaniyasını genişləndirərək, dünya ictimayyətinin diqqətini Rusiyanın aqressiv hərbi siyasət apardığına yönəltməkdədir. 2014-2015-ci illərdən başlayaraq aparılan təbliğatlar son illər nisbətən səngisədə, hazırda Rusiya və Qərb arasında qarşıdurma yeni, daha sərt mərhələyə keçid almaqdadı. Artıq antirus ritorikasından qərbin yüksək rütbəli şəxsləri də istifadə etməyə başlayıb.**



Hazırki təbliğat kampaniyası əvvəlkilərdən kordinal cəhətdən fərqlənir və daha sərt formada nümayiş etdirilir. Son 5-6 ildə dünya nizamı ciddi dərəcədə dəyişir. Əsrin ikinci onilliyinin ortalarında ABŞ başda olmaqla Qərb dominantlığı müşahidə edilirdisə, artıq yaşanılan bir çox ciddi böhran halları alternativsiz dominatlığı zəiflətməyə başladı. Rusiya, Çin kimi dövlətlər dirçələrək, onların da söz sahibi olduqlarını göstərməyə başladılar. Rusiya təkcə qonşu Ukraynada deyil, Suriyada, Livanda, hətta Avropanın ortasında güc nümayiş etdirərək "məndə varam" deməsi, təbii ki, Qərbi problemləri nisbətən yumşaltmağa, öz mövqeyini gücləndirməklə rəqibini çökdürməyə sövq etdi. Beləliklə, Rusiya Qərbin əsas hədəfinə çevrildi. KİV-lərin Ukraynada baş verən hadisələr ətrafında yaratdığı hay-küy, qərb siyasilərinin Moskvaya qarşı kəskin çıxışları, bir sıra sanksiyaların tətbiq olunması ilə Rusiyanın siyasi kapituliyasıyasına nail olmağa hesablanıb. SSRİ-nin dağılması prosesinin davamına hazırlıq gedir. Lakin hazırda Rusiya da aqoniya vəziyyətindən çıxıb və onun ətrafında eskalasiya yaratmaq Qərbin özünə zərbə vura bilər. Bütün daxili çətinliklərinə baxmayaraq, dünyanın müxtəlif qaynar nöqtələrində ABŞ və qərbə qarşı açıq mübarizədən də çəkinmir.

**Bir sözlə, tərəflər tezliklə razılıq əldə edə bilməsələr, dünya gücləri arasında tərəflərdən birinin məhvinə gətirib çıxaracaq müharibə qaçılmaz olacaq.**

**Rüstəm Hacıyev**

*Aqil ABBAS*

# UDUZMAĞIMIZIN 40 SƏBƏBİ VAR

(əvvəli 1-ci səhifədə)

**Mahir meydançadan çıxarılanadək yenə də Lüksemburq bizdən yaxşı oynayırdı və iki dəfə də qol epizodu yaratmışdı. Və bir oyunun taleyi ki bir futbolçudan asılıdı , deməli, o komanda yerində deyil. Bundan başqa, çoxlu misallar çəkə bilərəm ki, komanda on nəfərlə qalıb və oyunu aparıb.**

**Komanda sanki məşqçisiz oynayırdı. De Byazini və özü ilə gətirdiyi bir ZİL-130 italyan məşqçiləri indidən yıxıb sürümək istəmirəm. Onsuz da bir azdan özü də, yığıb gətirdikləri də yıxılıb sürünəcəklər.**



**Əgər həmin gün "Qarabağ"ı və ya "Neftçi"ni milli komanda adı altında oyuna buraxsaydılar, Lüksemburq burdan gözüyaşlı gedəcəkdi.**

**Yaxşı ki Qara Qarayev varmış. Yoxsa, Lüksemburq Fransa ilə oyundakı faciəni bizə yaşadardı.**

**Bir məsələyə də toxunmaq istəyirəm. Millimizə ən çox ona görə lağ edirlər ki, Lüksemburq kimi cırtdan bir ölkəyə (əhalisi 626 min, 2586,4 kv. km) uduzub. Düz yanaşma deyil. Şopenhauer deyir ki, əhalinin çoxluğu hələ onun böyüklüyünə dəlalət eləmir. Əslində o, çox kobud ifadə edib, o cür yazmaq istəmədim və Çinlə Hindistanı misal gətirir. Futbolda əgər əhalinin çoxluğu ölçü vahi-**



**di olsaydı, Çinlə Hindistan hər dəfə dünya çempionu olardı.**

**Dostlar, Lüksemburq Avropanın göbəyindədi, Avropanın ey. Qonşuları da futbol ölkələridi - Almaniya, Fransa və sairə, bizimki kimi Ermənistan, Gürcüstan, Dağıstan, İran deyil.**

**Heç kimi qınamayın, nə qədər ki Azərbaycanda ölkə çempionatı keçirilmir, Bakı çempionatı keçirilir, nə qədər ki uşaq futbolu yoxdu, nə qədər ki rayonlardakı Olimpiya stadionları axşamlar yalnız imkanlı adamların arıqlamaq meydançasıdı və ən əsası, nə qədər ki özümüzün gül kimi məşqçilərimiz küçədə it döyəcək (ifadəyə görə üzr istəyirəm)...**

**... Ağdamda Arif Zöhrabov adlı bir dostum vardı, indi də var. Muzeyin direktoru Yusif Əhmədovla həmişə məzələnərdi. Yusif müəllimin olardı 75 yaşı.**

**Arif müəllim deyirdi:**

**- Yusif müəllim, bilirsən muzey nəyə deyilir?**

**- Nəyə deyilir, ə?**

**- Deməli, işlənib işdən düşmüş, heç kəsə lazım olmayan əşyaları yığırlar işlənib işdən düşmüş, heç kəsə lazım olmayan bir lazımsız binaya. Qapısına da işlənib işdən düşmüş, heç kəsə lazım olmayan bir qıfıl vururlar. Və işlənib işdən düşmüş, heç kəsə lazım olmayan bir adamı da qoyurlar ora müdir...**

**... Və Avropada işlənib işdən düşmüş, heç bir komandaya lazım olmayan foqtsları gətirib komandaya baş məşqçi qoyacaqlar, artıq həmin milli komanda da, yuxarıda qeyd etdiyim muzeyə dönəcək.**

**Mahir Əmirəli başda olmaqla bütün futbolçularımızı ruhdan düşməməyə çağırırıq. Özünüz öz oyununuzu qurun və oynayın.**

**Etibar Əliyev**

# Əvvəlki nəsillər indiki UNEC-lə qürur hissi keçirirlər



## UNEC-in zamanı və məkanı

*Dünya ilə bərabər ali təhsil də sürətlə dəyişir. Sosial- iqtisadi dəyişikliklərin ritmi universitet islahatlarını daha da sürətləndirir. Əvvəlki nəsillərin universitetlərin sürətlə dəyiməsinə gümanları az idi. Əvvəlki nəsillər Ali təhsili ictimai fayda kimi qəbul edirdilər. Dövlət subsidiyası omadığı təqdirdə ali məktəblərin yaşaması məsələsi sual altında qalırdı. Milli akkreditasiyadan (buna yoxlama da deyirdik) kənara çıxmaq mümkün deyildi. Əvvəlki nəsillərə verilən təhsil ənənəvi pedaqogika və texnologiyanın məhdud tətbiqi ilə kifayətlənirdi. Çağımızda artıq ali təhsil şəxsi fayda gətirən dəyərə çevrildi. Beynəlxalq akkreditasiya və keyfiyyətin beynəlxalq auditi yarandı. Dəyişən pedaqogika ilə yanaşı, təhsilə texnologiyaların tətbiqi genişləndi. Dövlət subsidiyası azaldı, Universitetlər əlavə gəlir axtarmağa başladılar. Qeyd etdiyim bu trayektoriya bütün dünya universitetləri üçün cızılıb. Universiteti keçmişdən gələcəyə ləyaqətlə aparmağı yalnız islahatçı rektor bacara bilər.*

*Ölkə başçısı cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın UNEC-in 3-cü korpusunun açılışında iştirak etmələri onu göstərdi ki, qısa bir vaxtda universitet islahatları ilə önə çıxan bu universitet həm də infrastrukturunu (kampusunu) zənginləşdirməyi də prioritet seçib. UNEC ölkəmiz üçün insan kapitalının inkişafına öz töhfələrini artırmaq üçün məkanını genişləndirdi. Zaman isə bu Universitetin xeyirinə işləyir. Universitet rəhbərliyi arasıkəsilməz rasional islahatlar aparmağı, yeni çağırışlara cavab verən qərarlar qəbul etməyi, şəffaf təhsil və elm mühiti yaratmağı bacara bildi. Əvvəlki nəsillər indiki UNEC-lə qürur hissi keçirirlər. Çünki Narxoz adı yoxa çıxıb. Yeni nəsillərə isə yaradılan şəraitdən bəhrələnərək mükəmməl təhsil almağı arzulayıram.*



Fazil Mustafa

# "Ədalət Muradovun rəhbərlik etdiyi UNEC bunu bacardı"

*Hər zaman birmənalı olaraq işlətdiyim ifadədən fikrimi açıqlayıram: Univeristet -rektordan başlayır. UNEC qısa müddət ərzində bir islahatçı rektorun obrazı ilə Azərbaycanın model universitetinə çevrildi. Universitet islahatları dəyişən dünyanın əsas tələblərindən biridir. Daha az dövlət dəstəyi ilə həm təhsilin səviyyəsinin beynəlxalq standartlara yaxınlaşması, həm də universitet infrastrukturunun genişlənməsi bazar iqtisadiyyatı şərtlərində ən prioritet məsələlərdən biridir.*

*Professor Ədalət Muradovun rəhbərlik etdiyi UNEC bunu bacardı və möhtəşəm 3-cü korpusunu istifadəyə verdi. Bu Azərbaycan övladları üçün çox böyük şansdır və əminəm ki, onlar bu cür modern tələblərə cavab verən universitetdə yüksək bilik qazanma fürsətini qaçırmayacaqlar. Ardınca ADA Universitetinin də yeni korpusunun açılışı gerçəkləşdirildi və daha bir yüksək təhsil ocağının infrastrukturu genişləndirildi. Burada da yenə də rektor amili öz sözünü deyir. Professor Hafiz Paşayev də yüksək alicənablığı ilə seçilən ziyalı olmaqla yanaşı təhsilin standartlarının yüksək səviyyəyə qaldırılması üçün fədakarlıq edən rektorlarımızdandır. Hər iki universitetin bu önəmli açılışında dövlət başçısı və birinci vitse-prezidentimizin iştirakı təhsilimizin gələcəyinə dövlətin diqqətinin bir göstəricisi sayıla bilər. Əminəm ki, digər universitetlərimizin də keyfiyyətcə müasir tələblərə cavab verməsi üçün çalışmalarına bu kimi hadisələr ciddi stimul verəcəkdir.*

## *300-ə yaxın etirazçı saxlanılıb, yaralananlar var - Minskdə mitinqlər səngimir*



**9 avqust Belarusda keçirilən prezident seçkilərindən sonra seçki saxtakarlığına qarşı küçələrə axışan xalq etirazlara davam edir.**

Müxaliflər 4 avqust xalqa çağırış etmiş və bu hərəkatın adını "Birlik mitinqi" qoymuşdu. Çağırışın ardınca paytaxt Minskə ölkənin dörd bir yanından minlərlə adam gələrək mitinqə qoşuldu. Belarus Daxili İşlər Nazirliyi yürüşlərin qanuni olmadığını açıqlamış və paytaxtda ciddi tədbirlər görmüşdü.

Bütün əngəllərə rəğmən bir araya gələn minlərlə etirazçı Belarus prezidenti Lukaşenkonun qərargahına doğru irəlilədi.

Qərargaha 2 km qalmış polisin müqavimətilə rastlaşan etirazçılar Lukaşenkonun əleyhinə "istefa" şüarları səsləndirdilər.

Yürüş zamanı biri mətbuat işçisi olmaqla 76 nəfər polis tərəfindən saxlanılıb. Müxaliflər isə Minsklə yanaşı Qrodno və Vitepsk şəhərlərində də saxlanılanların olduğunu açıqladı.

Nazirlikdən verilən açıqlamada mitinqlərin icazəsiz olduğu bildirilərək etirazçıların bəzilərinin yüngül yaralandığını və 10 nəfərin saxlanıldığı dedi.

**Müxalifət tərəfindən verilən açıqlamada isə 300 nəfərin saxlanıldığı qeyd olunur.**

**Eminquey**

## *Alimlər koronavirus infeksiyasından qorunmaq üçün vasitə tapdı*

**İsveçin Karolinsk Universitetinin alimləri SARS-CoV-2 koronavirusunun insan hüceyrələrinə girməsini əngəlləyə biləcək kiçik neytrallaşdırıcı anticisim (nanocisim) aşkarlayıblar. Mütəxəssislər ondan virusa yoluxmaya qarşı qoruyucu vasitə kimi, həmçinin COVID-19-un ağırlaşmasının qarşısını almaq üçün istifadə edilə biləcəyinə inanırlar.**

**Bu barədə "Nature Communications" jurnalında dərc olunan məqalədə bildirilir.**

**Ty1 adı verilən nanocismin adi anticisimlərə nisbətən bir sıra üstünlükləri var. O, anticisimlərin 1/10-i ölçüsündədir, beləliklə də onları böyük miqyasda daha ucuz qiymətə istehsal etmək olar. Alimlər hazırda Ty1-in neytrallaşdırıcı fəaliyyətini və terapevtik potensialını öyrənmək üçün heyvanlar üzərində tədqiqatlara başlayıblar.**

**MEHRİBAN**

# "Əli Nağıyev və Kamran Əliyev qanunu pozan məmurlara elə bir "qulaqburması" verib ki..."

## Mahmud Hacıyev: "Bu məmurlar vəzifə cinayətləri ilə bağlı xroniki xəstəliyə tutulmuşdu, onları ancaq bu cür "müalicə etmək" olardı"

***Son bir ildir ki, ölkəmizdə rüşvət və korrupsiyaya qarşı mübarizənin daha da güclənməsi müşahidə edilir.***

***Moderator.az olaraq tanınmış hüquqşünas, sabiq polis rəisi, polkovnik Mahmud Hacıyevlə söhbətimizdə korrupsiyaya qarşı mübarizə, məmur-vətəndaş münasibətləri, məhkəmə sistemi və s. kimi məsələləri müzakirə etməyə çalışdıq.***

**- Mahmud müəllim, ilk öncə ölkəmizdə rüşvət və korrupsiyaya qarşı aparılan mübarizə ilə bağlı fikrinizi bilmək istərdik. Sizcə bu mübarizənin mövcud səviyyəsi nə dərəcədə qənaətbəxşdir?**

- Son bir neçə aydır ki, respublikamızda rüvətxorluğa, korrupsiyaya qarşı prinsipial mübarizə gedir. Neçə-neçə dövlət məmuru, səlahiyyət sahibi bu səbəbdən vəzifədən azad edilərək məsuliyyətə cəlb olunur. Bu mübarizəyə şəxsən ölkə başçısı rəhbərlik edir. Hesab edirəm ki, bu gün bu kimi neqativ hallara qarşı mübarizə yüksək səviyyədədir və qətiyyətlə davam etdirilir.

**- Niyə bu mübarizə sadəcə son bir ildə özünü göstərməyə başladı? Axı heç kimə sirr deyil ki, əvvəlki illərdə də bu problem kifayət qədər aktual olub?**

- Hörmətli prezidentimiz zaman-zaman məmurlarla bağlı xəbərdarlıqlar edib, onları şəffaf işləməyə, neqativ hallara yol verməməyə, xalqın arzu və istəklərini nəzərə almağa səsləyib. Bildirib ki, məmur vətəndaşı incitməməli, ona xidmət etməlidir. Biz vaxtaşırı ölkə başçısının bu kimi çağırışlarına şahid olmuşuq. Lakin bəzi məmurlar vəzifə cinayətləri ilə bağlı xroniki xəstəliyə tuulmuşdular. Bundan əl çəkə bilmirdilər. Bu məmurlar o qədər harınlamışdı ki, heç nəyə məhəl qoymadan bu cinayətlərə gedirdilər. Odur ki, bu qanunsuzluqların qarşısını almaq üçün daha ciddi tədbirlərin həyata keçirilməsi zərurətə çevrilmişdi.

**- Bəs hüquq-mühafizə orqanları niyə buna adekvat reaksiya vermirdi? Axı bu özbaşınalıqlara müdaxilə etmək, qanunsuzluqların qarşısını almaq bilavasitə onların işidir? Hansı ki, ölkə mediası, kütləvi informasiya vasitələrində də bu problemlərlə bağlı heç də az yazı yer almırdı.**

- Baxın, vaxtiylə Milli Təhlükəsizlik Nazirliyi (MTN) nə gündə idi, bunu hamı bilir. Nəticədə, bu qurumda böyük cinayətkar dəstə tutuldu. Bundan başqa, orada çalışanların bir qismi bu orqandan xaric olundu. Yəni bu kimi cinayətlərə qarşı mübarizə ilə məğul olması gərəkən şəxslərin özü belə cinayətlərlə məşğul idi. Buna görə də onlar KİV-in məlumatlarına adekvat reaksiya vermirdi. Onlar ölkə başçısının göstərişlərinə də adekvat reaksiya ortaya qoymurdular. Son nəticədə özləri-özlərini "yandırdılar". Bir neçə general həbs edildi, xeyli sayda insan məsuliyyətə cəlb olundu.

Uzun müddət Baş Prokurorluğa rəhbərlik edən Zakir Qaralov bir müddətdir ki, vəzifəsindən azad olunub. Həmin dövrdə prokurorluq orqanları loyal bir mövqe sərgiləyirdi. Onların fəaliyyəti özünü lazımınca hiss etdirmirdi. Hörmətli Qaralov heç kimin xətrinə dəymək istəmirdi. Onun vaxtında hər hansı iri dövlət məmuru, hansısa böyük kommersiya şirkətinin, bankın rəhbərliyində təmsil olunan şəxs haqqında cinayət işi qaldırmaq kimi hallar demək olar ki, yox idi.



Sonradan məmur özbaşnalığının artması ölkə baçısnın adekvat reaksiyasına səbəb oldu. MTN-də ciddi islahatlar aparıldı. Kütləvi həbslər oldu. MTN-nin infrastrukturu dəyişildi. Adı Dövlət Təhlükəsizlik Xidməti (DTX) oldu. Onun rəhbərliyinə isə əsl peşəkar, xüsusi xidmət orqanlarında püxtələşmiş, leytenant rütbəsindən general rütbəsinə qədər yüksələn hörmətli Əli Nağıyev gəldi. DTX yüksək səviyyədə fəaliyyətə başladı.

Eyni islahatlar prokurorluq orqanlarında da həyata keçirildi. Bir neçə şəxs orqandan uzaqlaşdırıldı. Rəhbərlikdə dəyiişiklik oldu. Baş Prokurorluğun rəhbərliyinə öz işini bilən, pokurorluq oranlarının fəaliyyətini dürüst şəkildə tənzimləyən hörmətli Kamran Əliyev gəldi. Prezidentin tapşırığı ilə bu orqanlar doğma fəaliyyətlərinə başladılar. Bundan sonra neçə-neçə icra başçısı, nazir müavini, şirkət və bank rəhbəri həbs olundu. Yəni mübarizə bu dəyişikliklərdən sonra özünü daha çox göstərməyə başladı.

*"Məmurlar vətəndaşları dövlətdən narazı saldıqları üçün insanlar ölkə başçısına, hörmətli Mehriban xanıma müraciət etməli olurlar"*

Əli Nağıyev və Kamran Əliyev qanunu pozan məmurlara elə bir "qulaqburması" verib ki, yəqin ki, çoxları öz neqativ əməllərindən əl çəkəcək.

Baxmayarq ki, indi də vəzifə cinayətlərinin subyekti ola biləcək şəxslərə təsadüf olunur.

**- Mahmud müəllim, zaman-zaman müzakirə predmetinə çevrilən problemlərdən biri də dövlət məmurlarının öz nüfuz və səlahiyyətlərindən istifadə edərək biznes şəbəkəsi yaratması, kommersiya şirkətlərinin fəaliyyətinə müdaxilə etməsidir. Sizcə bu problem bu gün üçün nə dərəcədə aktualdır?**

- Qeyd edim ki, nə qədər arzuedilməz olsa da, mən özüm də bu cür hallara şahid olmuşam. Hətta bununla bağlı başıma bir iş də gəlib. 2 il bundan öcə "Titan-D" MMC adlı özəl mühafizə və kommersiya şirkətindəki işimdən qanunsuz olaraq azad edildim. Hansı ki, bu qurumda 10 ildən çox idi ki, çalışırdım. Mən işdən azad olunmağımla bağlı əmri tələb etdim və bunu əldə edəndən sonra məhkəməyə müraciət etdim.

Səbail Rayon Məhkəməsi həmin MMC-nin xeyrinə qərar qəbul etdi. Odur ki, Apellyasiya Məhkəməsinə müraciət etdim. Appelyasiya Məhkəməsində savadlı hakim Namiq Cəfərov mənim haqqımda qanuni qərar verdi. Səbail Rayon Məhkməsinin qərarı ləğv edildi. Qərarda işə bərpa olunmağım, buraxılmış iş müddətinə görə əmək haqqımın ödənilməsi öz əksini tapmışdı. Bu arada qeyd edim ki, hörmətli Namiq Cəfərovun hakimlik fəaliyyəti yüksək qiymətləndirən hörmətli ədliyyə naziri Fikrət Məmmədov daha sonra onu Məhkəmə-Hüquq Şurasına cəlb etdi.

Apellyasiya Məhkəməsinin qərarından sonra öyrəndim ki, iri məmurlardan biri bu iş müdaxilə etməyə, sözügedən MMC-nin xeyrinə qərar çıxarmağa çalışır. Ali Məhkəmə Namiq Cəfərovun qərarını ləğv etdi. İşi yenidən Apellyasiya Məhkəməsinə göndərdi. Apellyasiya Məhkəməsində isə Şeyda Məhərrəmova bir az da irəli gedərək Səbail Rayon Məhkəməsinin qərarını qüvvədə saxladı. Bundan sonra mən yenidən Ali Məhkəməyə müraciət etdim. Şükürlər olsun ki, bizim məmləkətdə Namiq Cəfərov, Ələsgər Əliyev, Əhməd Əhmədov kimi hakimlər var.

Əhməd Əhmədov mülki kollegiyada bu işə baxdı və qanuni qərar qəbul etdi. Ali Məhkəmə 2019-cu ilin dekabr ayının 17-də qərar verdi. Qərarda qeyd olunurdu ki, işimə bərpa edilim, buraxılmış iş günlərinə görə əmək haqqım ödənilsin. 2019-cu ilin dekabrın 17-də verilən qərar 5 ay - 2020-ci ilin may ayının sonlarına qədər icra edilmədi. Halbuki, mülki-prosessual qanunvericlikdə düzünə göstəriş var ki, Ali Məhkəmənin qəbul etdiyi qərar qərar qəbul edilən gündən qüvvəyə minir.

**- Sizcə qərarın icrasının uzadılması, 5 ay icra ollunmaması nə ilə bağlı idi?**

- Buna səbəb dövlət məmurunun kommersiya şirkətinin işinə müdaxiləsi idi. Bu mümkün deyil ki, Ali Məhkəmənin qərarının icrasını hər hansı MMC direktoru 5 ay müddətində saxlasın. Bu, hər hansı MMC-nin gücü daxilində olan məsələ deyil.

**- Bəs sonra nə baş verdi?**

- Daha sonra iş Konstitusiya Məhkəməsinə çıxdı. Konstitusiya Məhkəməsinə gedəndən sonra mən məcburiyyət qarşısında qalaraq həm ölkə başçısına, həm hörmətli I vitse-prezidentə, həm də hörmətli Fuad Ələsgərova müraciətlər etməyə başladım. Onlara müraciətimdən sonra iş Konstitusiya Məhkəməsində də öz həllini tapdı. Son nəticədə mən iki illik əmək haqqımı aldım. Lakin gəlin biz, məsələyə başqa konteksdən yanaşaq. Olmazmıdı ki, həmin dövlət məmuru bu işə qarışmayaydı? Məsələ də indi olduğu kimi məhkəmə müstəvisində, qanuni şəkildə öz həllini tapardı. Axı bu cür müdaxilələr vətəndaşı dövlətdən narazı salır.

Prezident qlobal səviyyəli işlərlə məşğuldur. Biz bu cür müraciətlərlə onun bu fəaliyyətinə mane oluruq.

Niyə vətəndaş hər xırda işə görə prezidentə, I vitse-prezidentə müraciət etməlidir? Məmur müdaxilələri məcbur edir ki, vətəndaş məcburiyyət qarşısında qalıb bu müraciətləri etsin.

Bu səbəbdən də hesab edirəm ki, dövlət məmurları vətəndaşları dövlətdən narazı salmamalı, yalnız öz işləri ilə məşğul olmalıdır. Qanunun onlardan tələb etdiyi də məhz budur.

Mən müraciətlərimə həssaslıqla yanaşdığına, üzləşdiyim problemin ədalətli həllində göstərdiyi köməkliyə görə həm ölkə başçısına, həm də hörmətli Mehriban xanıma öz təşəkkürümü bildirirəm. Ümid edirəm ki, ölkə başçımızın apardığı qətiyyətli siyasət nəticəsində yaxın gələcəkdə ölkəmizdə elə bir şərait yaranacaq ki, məmurlar vətəndaşlarda hət hansı narazılıq yaratmayacaq, yalnız öz işləri ilə məşğul olacaq, vətəndaşlar da prezidentə müraciət edərək onun qlobal miqyaslı fəaliyyətinə mane olmayacaqlar.

Rza Rzayev



# Naxçıvanlı olmaq...

## Arının pətəyinə çöp uzatmayın!

**HƏDƏF - qürur, şəxsiyyət, mənlik, iradə, əzm, dönməzlik və kişilikdi!**

**Çar Rusiyası zamanı Qış Sarayında Hüseyn Xan Naxçıvanski adlı igidimiz olub, çarın adyudantı.**

**Bolşeviklər çar Rusiyasını devirəndə demək olar ki, bütün vəzifə tutanlar və çara çox sadiq olan adamlar bolşeviklərin tərəfinə keçdi.**

**Bir neçə general axıra qədər çara sadiq qaldılar. Bunlardan biri və birincisi, sona qədər çarı müdafiə edən, şəxsiyyətini, qürurunu, mənliyini sona qədər qoruyan Hüseyn Xan Naxçıvanski oldu.**





**Sona qədər çarı qorudu və çara sadiq qaldı. Sonda güllələndi. Haqqında çox az məlumat var, harada dəfn edildiyi də məlum deyil.**

**Tarix dönür, dönə-dönə təkrarlanır, hadisələr, baş verənlər, insanlar fərqli olsa da, məzmun və mahiyyət dəyişmir.**

**Tarix döndüyündən, tarixi döndərən bolşeviklərin də tarixi dönmək üzrə idi. Bu zaman öz sifəti, şəxsiyyəti, qüruru, mənliyi olan bir Böyük Kommunist var idi.**

**Bu Böyük Kommunist həmişə ayaqda olub, indi isə başa keçib əyləşən kommunistlərin hədəfinə çevrildi.**

**Bəlkə də həmişə ayaqda olub, indi başa keçən kommunistlər elə çarı satan, o vaxtki vəzifəlilərin qohumları, qanını daşıyanları idi. çünki satqınlıq, ikiüzlülük genetik koddur.**

**Bu dəfə hədəfdə yenə satılmayan, ikiüzlülük etməyən, qürurunu, mənliyini, şəxsiyyətini qoruyan, Hüseyn Xan Naxçıvanskinin həmyerlisi General Heydər Əliyev idi.**

**Həm imperiyanın mərkəzindəkilər, həm də Bakının mərkəzində oturanlar, ikiüzlülər, mənliyi, şəxsiyyəti olmayanlar, sifətsizlər Onu hədəf seçmişdilər.**

## *Tramp: Mənə qarşı geniş hücum başlayıb*




**Demokratlar Partiyası və yalan kütləvi informasiya vasitələri şəxsimə qarşı genişmiqyaslı dezinformasiya yayırlar.**

Bu sözləri ABŞ Prezidenti Donald Tramp deyib. "Demokratlar korrupsiyalaşmış yalançı media ilə birlikdə əvvəllər heç olmadığı kimi genişmiqyaslı dezinformasiya kampaniyası başlatdılar. Onlar nə gəldi danışacaqlar. Mən və ordu haqqında yalanları kimi. Ümid edirlər ki, istədiklərini deyəcəklər və bu, yaşayacaq", - deyə Ağ Ev rəhbəri bildirib.

## *Bağdad aeroportu raket atəşinə tutuldu*



**İraqın Bağdad Beynəlxalq Hava Limanı raket hücumuna məruz qalıb.**

Bu barədə "Şəfəq Nyus" məlumat yayıb. Belə ki, Əbu-Qreyb rayonundan 3 raket buraxılıb. Raketlərdən biri mülki dayanacağın ərazisinə düşüb və nəticədə 4 maşın zərər görüb. Bildirilir ki, hücumun hədəfi aeroport ərazində amerikalı və iraqlı hərbçilərin yerləşdiyi hərbi baza olub.

# Alın bu da sizə sivil Amerika

**O bir afrikalı idi…**

**Konqolu..**

**Boyu cəmi 1.49 idi.**

**46 kiloydu.**

**23 yaşında evli idi və bir uşağı var idi.**

**Gülər üzlü, həyat dolu insanıydı.**

**Adı Oto Benqaydı.**

**Öz dillərində adı dost demək idi.**

**Bir gün Kasai çayında balıq ovlayarkən onu tutdular.**

**Onu tutan amerikalı din adamı Samuel P.Verner idi.**

Boynunu və ayaqlarını zincirə vurdular.

Yük daşısın deyə bircə əllərini azad buraxmışdılar.

Qılmanclar altında saatlarla yol apardılar.

Sonra onlarla həmyerlisi ilə birgə geminin motor sahəsinə saldılar.

Qaranlıqda həftələrlə sürən yoldan sonra Nyu-Yorkda gün işığı gördü.

Həmvətənlərindən ayırıb bir qəfəsə qoydular.

Günlərlə orda qaldı.

Qabağına kilid atdılar.

Tarix 9 sentyabr 1906-cı il idi.

Oto Benqa Amerika qitəsinə ayaq qoyan, insan dedikləri məxluqların bu qədər qəddar, bu qədər mərhəmətsiz, zalım olduqlarını bilmirdi.

Onun vətənində aslanlar, ac timsahlar və yırtıcı heyvanlar belə bu qədər vəhşi deyildi.

Nyu York Bronks zooparkında o gün görünməmiş sıxlıq var idi. Hətta ziyarət rekordu yaşanırdı.

Səbəbi "Nyu York Tayms" qəzetində çıxan bir xəbər idi.

Belə yazılırdı…

***"Vəhşi adam Bronksda meymunlarla eyni qəfəsdədir. İnsanın ilk əcdadları ilə bir yerdə. Baxıcısı onu bəzən sərbəst buraxır. Sentyabr ayı ərzində onu ziyarət edə bilərsiniz."***

Qəzetdə belə bir qeyd də var idi.

***"Bəzi adamlar bu hadisəyə etiraz etsələr də elm adamları Benqanın insan olmadığı qənaətindədirlər."***

Benqanı öncəni xortumla yudular.

Sonra zooparkda ağaclar içində böyük bir qəfəsə qoydular.

Qucağına Dohonq adlı oranqutanq balasını verdilər.

Jurnalistlər onların şəkillərini çəkərkən minlərlə insan da onu izləyirdi.

Oto Benqa da onları...

Üzündə qəribə bir ifadə var idi.

Kədər və kin…

Bala oranqutanq qorxusandan ona sarılmışdı.



Hər gün saatlarla poz verdilər.

Bir həftə ərzində ziyarət edənlərin sayı 250 mini keçdi.

Bəziləri qəfəsə sümük atırdı.

Oto Benqa əsəbləşib iti dişlərini göstərəndə "Hannibal, hannibal" deyə qışqırırdılar.

Qəzetlər Benqa "adamyeyəndir" deyə başlıqlar atmağa başladı. Bütpərəst Benqaya qarşı edilən bu zülmə qarşı çoxu xristian olan Nyu York şəhərinin əhalisindən bir səs çıxmadı.

Nə siyasətçilər, nə elm adamları, nə jurnalistlər, nə də ziyalılar…

***Ürəklərinin qulaqları kar olmuşdu.***

***Hər kəs bu vəhşiliyi təbii qarşılayırdı.***

***Bir nəfərdən başqa.***

***Rahib Ceyms H.Qordon.***

***Zülmə qarşı üsyan etdi.***

***Qəzet-qəzet gəzdi.***

***Imza yığdı.***

Yatmış insanlığı oyatmaq üçün döymədiyi qapı qalmadı.

Kilsədə ardıcıl olaraq eyni şeyləri söylədi.

"İnsan irqindən olan birinin meymunlarla birgə sərgilənməsi ən böyük günahdır."

Axırda Bronks zooparkı Oto Benqanı azad buraxdı.

Şalvar, köynək geyindirdilər.

Xidmətçi işlərində işlətdilər.

Tarix 20 mart 1916-cı il idi…

Ailəsindən, uşaqlarından, həmvətənlərindən minlərlə km uzaqda ola Oto Benqa oğurladığı bir silahla ürəyindən vuraraq intihar etdi.

Çünki ölüm onun azadlığı idi.

Öləndə hələ 32 yaşı var idi.

Bronks Zooparkı Oto Benqa ilə bağlı bütün qeydlərini sildi.

Ancaq fotolar və qəzet xəbərləri gerçəyi gizlədə bilmirdi.

Təzyiqlərin artmasından sonra Zoopark rəsmiləri " Bütün dünya bunu edirdi, biz niyə etməyək?" dedilər.

Dedikləri doğru idi.

Həmin illərdə mədəni dediyimiz Avropanın bir çox şəhərində eyni vəhşilik nümayiş olunurdu. London, Paris, Brüssel, Barselona, Milan, Hamburq kimi şəhərlərdə qəfəs içində insanlar digər insanların əyləncəsi idi.

Bu vəhşilik elə bir gəlir qapısı olmuşdu ki, zooparkların yerini "İnsan qəfəslər"i tutmuşdu.

1960-cı illərə kimi minlərlə insan qəfəslərdə heyvanlar kimi sərgiləndi.

Amma modern insanlar kar və kor idi…

Oto Benqanın vətənində belə bir atalar sözü var:

**"Jaa se behn-indeh bun-wehnin"**

**Bəzək həqiqətlə eyni olmaya bilər. Həqiqətinsə bəzəyə ehtiyacı yoxdur.**

**Bu gün mədəni dediyimiz Amerikanın və Avropanın "Sülh, azadlıq və demokratiya" sözləri sadəcə bir bəzəkdir.**

**Tərcümə: Emin Piri**

## *Rusiyadan Şərqi Aralıq açıqlaması*



**Afina və Lefkoşa arasındakı gərginliyi azaltmaq üçün vasitəçi olmağa hazırıq.**

Bunu Rusiya Xarici İşlər naziri Sergey Lavrov Cənubi Kipr mətbuatına açıqlamasında deyib.

O bildirib ki, BMT Ankara ilə Lefkoşa arasındakı problemləri həll etmək üçün universal bir platformadır:

"Əgər tərəflər müraciət edərsə, Rusiya da Cənubi Kipr və Türkiyə arasında yaxşı qonşuluq münasibətlərinin qurulmasına töhfə verməyə hazırdır. Biz münaqişə potensialının daha da artması ilə bağlı hər hansı bir hərəkəti qəbuledilməz hesab edirik. Bölgədəki dövlətlərin rəhbərlərinə mübahisələrin yalnız sülh və qanuni yollarla həll edilməsi üçün çağırış etdik".

**MEHRİBAN**



Vilayət Quliyev

# Mərd oğulların qanının dadı

*Türk xalqlarına münasibətdə çarizmdən daha amansız və qəddar mövqe tutan Sovet İttifaqında 1920-ci illərdən etibarən siyasi həyatda üç "zərərli" ideya-siyasi təmayülün mövcudluğu elan olunmuş və onlara qarşı sərt mübarizə başlanmışdı. 1937-ci ildə yüzlərlə ziyalı və dövlət adam bu "millətçi təmayüllərə" mənsubluqda təqsirli bilinərək güllələnmə cəzasına məhkum edilmişdi.*

*1. Narimanovhina*
*2.Sultanqalievhina*
*3.Valitovhina*

*Nəriman Nərimanovu (1870-1925) az-çox tanıyırıq.*

*Qərb tarixçilərinin "müsəlman Trotskisi", "Üçüncü Dünya inqilabının atası" adlandırdıqları Mirsəid Sultan - Qaliyev (1892-1940) XX əsrin əvvəllərində bolşevizmlə təmas quran tatar siyasətçiləri arasında yüksək intellekti, nəzəri hazırlığı və tribunluq keyfiyyətləri ilə seçilirdi. Milli məsələyə problemin rəsmi bilicisi kimi təbliğ edilən Stalindən qat-qat yaxşı bələd idi. Ən başlıcası isə stalinsayağı zorakılıq və yeni müstəmləkəçilik yolu tutmaq fikrindən min ağac uzaq idi. Türk-müsəlman xalqlara daha həssas, diqqətli münasibət tələb edirdi. Onların keçdikləri tarixi inkişaf yolunun və milli özünəməxsusluqlarının nəzərə alınmasını, dillərinə və dinlərinə hörmət qoyulmasını zəruri sayırdı. Bu müstəvidə də Stalinlə, bolşevik rəhbərliyi ilə qarşı-qarşıya gəlməli olmuşdu.*

*Parlaq zəkası, tribunluq keyfiyyətləri ilə Stalini kölgədə qoyan tatar bolşevikinə qarşı təqiblər 1920-ci ildə başlamışdı. Həmin il onun - Rusiya K(b)P MK yanında Şərq xalqları kommunist təşkilatları Mərkəzi bürosu sədrinin Bakıda keçirilən Şərq xalqlarının I qurultayında iştirakına imkan verilmədi. Bu təkcə nonsens deyildi, həm də gələcək təqiblərin anonsu idi. 1923-cü ildə artıq əlində kifayət qədər hakimiyyət toplayan Stalin rəqibinin həbsinə nail oldu. Tanınmış sovetoloqlar A.Benninqsen və Ş.Lemerje-Kelkeje Sultan-Qaliyevi Stalinin "ilk ovu" adlandırırlar. Sonralar özləri də "xalqlar atasının" ovuna çevrilən L.D. Trotski və L.V.Kamenev 1920-ci illərin əvvəllərində, hələ yetərincə nüfuz və tərəfdarlara malik olduqları bir şəraitdə Stalinə Sultan-Qaliyevin "qanının dadına baxmağa" imkan yaratdıqları üçün peşmançılıqlarını dilə gətirmişdilər.*

*1923-cü ildən sonra dəfələrlə həbs edilən, iki dəfə ölüm kamerasında faciəli aqibəti gözləyən M.Sultan-Qaliyevin əzablarla dolu həyatına barəsində çıxarılan ikinci ölüm hökmünün 1940-cı ilin yanvarında yerinə yetirilməsi ilə son qoyuldu. O, dünya siyasi tarixinə "islam marksizmi" təliminin müəllifi kimi daxil oldu. Rus tarixçisi R.Q.Lanqanın fikrincə, "dünya miqyaslı ictimai mütəfəkkir" və "islam xalqlarının azadlıq hərəkatının görkəmli nəzəriyyəçisi" M.Sultan-Qaliyev zorakı yolla siyasi həyatdan təcrid edilməsəydi, fikir və təklifləri nəzərə alınsaydı, bəlkə də gələcəkdə bir çox proseslərin, o cümlədən Sovet İttifaqının dağıdıcı süqutunun, radikal islam hərəkatının qarşısını almaq mümkün ola bilərdi.*

*N.Nərimanov və M.Sultan-Qaliyevdən fərqli olaraq başqırd milli hərəkatının lideri Əhməd Zəki Vəlidov (1890-1970, TC vətəndaşlığını qəbul etdikdən sonra Zəki Vəlidi Toqan kimi tanınmışdı) bolşeviklərlə bütün körpüləri yandırmağı və siyasi mühacir həyatı yaşamağı daha üstün tutdu. Görünür o da M. Ə. Rəsulzadə kimi yeni rejimin mahiyyətini zamanında anladığından bu mühüm qərarı verə bilmişdi. Nəticədə radikal addım atmaqdan, kəskin şəkildə cəbhə dəyişdirməkdən çəkinməmişdi.*

*Bolşevik hakimiyyətinin çətin vaxtında, 1919-cu ilin martında mütəşəkkil hərbi gücə malik başqırdlarla müqavilə imzalayıb onlara federal Rusiyanın tərkibində həqiqi muxtariyyət vəd edən, vəziyyət düzələndən sonra həmin sənədi "kağız parçası" adlandıran Leninin siyasi riyakarlığı Zəki Vəlidinin gözünü açmışdı. Az əvvəl bolşevikləri müttəfiqi sayılmasına, dəfələrlə Lenin, Stalin, Trotski və s.görüşüb əməkdaşlıq yollarını müzakirə etməsinə, Lenindən zirehli "Ford" hədiyyə almasına baxmayaraq Zəki Vəlidi 1921-ci ildə öz yerini sovet rejiminin barışmaz düşmənlərinin - basmaçılar hərəkatının rəhbərliyində tapdı. Burada 1921-ci ilin yayında Türküstan Milli Şurasını qurub bolşevik rejiminə qarşı geniş miqyaslı ideoloji və hərbi mübarizəyə başladı. Başlıca ideoloqlarından olduğu hərəkatın məğlubiyyəti ərəfəsində əvvəlcə İrana, oradan da Qərbi Avropaya üz tutdu. Türkiyədə dünya miqyasında tanınan elm adamı oldu.*

## *Sahildə cansız bədəni çəkilən uşağın atası danışdı:Heç kim ölkəsini səbəbsiz yerə tərk etməz*



**Ailəsiylə birgə 5 il əvvəl Yunanıstana getməyə çalışan 2 yaşlı Aylanın sahildə, qumun üzərində uzanmış cansız bədənin fotosu dünyanı ayağa qaldırmışdı. Aradan keçən bu müddətdə heç nəyin dəyişmədiyini söyləyən Aylanın atası Abdullah ingilis mətbuatına danışdı.**

Abdullah ", qaçqınları sərhədlərinizdən içəri buraxın" deyib. Abdullah deyib ki, Aylan öldüyü gündən bəri demək olar, heç nə dəyişmədi. İngilis hököməti ölkələrinə gələn qaçqınları qəbul etməli və Türkiyə sahillərindəki qırmızı köynəkli uşağın fotosuna baxaraq qəlblərini açmalıdırlar. Heç kim ölkəsini səbəbsiz tərk etmir. İstər Yəməndən, istərsə də Suriyadan gəlin, insanlar qayıqlara minərək ölkələrindən sahib olmadıqları təhlükəsizliyə qovuşmaq üçün yola çıxırlar. Aylan və onunla eyni qəzada dünyasını dəyişən qardaşı Qalibin adını daşıyan yardım dərnəyinin sahibi Tima da "qaçqın kamplarının vəziyyəti çox pisdir. Sadəcə, İngiltərənin gücü 50 min qaçqını saxlamağa çatır, amma siyasətçilər pul istəyirlər. Lütfən, insanları ölkənizə buraxın. 2015-ci ildə o sahildə çəkilmiş fotoya baxın, ürəyiniz sızıldayırsa, sizdən yardım gözləyən adamlara ürəyiniz yanacaq. İngiltərə keçən il 35566 qaçqını qəbul etmişdisə, bu il bu rəqəm 5025-ə düşüb.

**Eminquey**

# YOL BİZİ İŞIĞA APARIR

**Kim nə deyir desin, hər hansı bir ölkə ilə ilkin tanışlıq kömrük-keçid məntəqəsindən sonra onun yollarından başlayır. Əgər o ölkənin yolları müasir dünya standartlarına cavab verirsə, deməli, o yollarda avtomobillə hərəkət edərkən çətinliklə üzləşməyəcəksən və mənzil başına da rahat çatacaqsan. Üstəlik də yolların rahat olması nəqliyyat vasitələrini qəza təhlükəsindən də xilas edir. Və biz həmişə xarici ölkələrin yollarına baxıb həsəd aparmışıq. Ki, kaş bizim məmləkətdə də belə gözəl yollar ola!**

### *... Uzun illər arzuladığımız*

və xəyalımızdan keçən, dünya standartlarına cavab verən yollar Azərbaycanda da tikilib və tikilir.



Hansı ki, 30-40 il bundan əvvəl istər şimal, istər cənub, istərsə də qərb istiqamətinə hərəkət edərkən sürücülər olmazın əziyyətləri ilə üzləşirdilər. 2-3 saatlıq yolu avtomobillərlə 5-6 saata getmək mümkün olurdu. Və onda da həm sürücülər, həm də sərnişinlər çox böyük çətinliklərlə üzləşirdilər.

***Ulu Öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra Azərbaycanda digər sahələrdə olduğu kimi, yol infrastrukturunda da böyük dəyişikliklər yaranmağa başlandı. Yəni Azərbaycanın avtomobil yolları Avropa standartlarına uyğun olaraq inşa edildi. Sürücülərin və sərnişinlərin üzləşdikləri vəziyyət yol infrastrukturunun yenidən tikilməsilə zaman-zaman aradan qaldırıldı. Prezident İlham Əliyevin hakimiyyəti dövründə isə bu proses bir qədər də sürətləndirildi. Nəinki respublikanın avtomobil yolları, hətta şəhərlərdə, rayonlarda, qəsəbə və kəndlərdə müasir standartlara cavab verən yollar inşa edildi.***

Bu gün istər ölkənin şimal, istər cənub, istər qərb istiqamətinə hərəkət etsən, nəqliyyat vasitələrilə heç bir çətinliklə üzləşməyəcəksən. Əvvəllər 7-8 saata getdiyin yolu indi çox rahat və təhlükəsiz olaraq 3-4 saata qət edə bilirsən. Təbii ki, bütün bunlar ölkənin yol infrastrukturunun Avropa standartlarına uyğun olaraq yenidən tikilməsi və inşa edilməsi ilə bağlıdır.

Üstəlik də avtomobil yollarının lazımi standartlara cavab verməsi nəqliyyat vasitələrinin texniki cəhətdən saz qalmasına və baş verən yol-nəqliyyat hadisələrinin sayının aşağı enməsinə şərait yaradır. Əlbəttə, hər bir iş yüksək səviyyədə və keyfiyyətli icra ediləndə təbii ki, onun da çox müsbət nəticələri olur.

Hər il ölkə prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə milyonlarla manat vəsait ayrılır. Bu vəsaitlə məlum qurum həm respublika əhəmiyyətli yolların yenidən tikilməsində, həm də şəhərlərarası, rayonlararası və kəndlərarası yolların inşa edilməsində öz xidmətlərini həyata keçirirlər. Onu da qeyd edək ki, Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev öz çıxışında dəfələrlə bəyan edib ki, dünyada gedən iqtisadi böhrana və neftin qiymətinin aşağı düşməsinə baxmayaraq, heç bir sosial layihələr təxirə salınmayacaq. Bəli, bu həqiqətən də belədi. Dünyanı koronavirus təhlükəsi cənginə alanda da, iqtisadi böhran dünyanın dizini qatlayanda da, Azərbaycanda cənab Prezident heç bir sosial layihəni təxirə salmadı. Elə 2020-ci ildə yol infrastrukturunun yenidən qurulması ilə əlaqədar olaraq on milyonlarla manat vəsait ayrılıb.

***Onu da qeyd edək ki, istər respublika əhəmiyyətli yolların yenidən tikintisinin, istərsə də şəhərdaxili, rayondaxili və qəsəbədaxili yolların açılışında şəxsən cənab Prezident özü iştirak edib və avtomobilə minərək həmin yolları birinci dəfə özü gedib və yol tikintisindən də razı qaldığını bəyan edib.***

### *Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi*

İdarə Heyətinin sədri Saleh Məmmədov bu vəzifəyə təyin olunandan sonra öz işinə çox məsuliyyətlə yanaşıb, tabeliyində olan əməkdaşlara vəzifələrinə daha vicdanla yanaşmalarını tapşırıb. Təbii ki, Avtomobil Yolları Dövlət Agentliyinin tikdiyi hər bir yol öz keyfiyyəti, standartları və uzun ömürlüyü ilə heç də Avropanın yollarından geri qalmır. Əgər biz əvvəllər xarici ölkələrə gedərkən o yollara baxıb köks ötürürdüksə, bu gün demək olar ki, əcnəbilər gəlib bizim yolları görəndə həmin hissləri keçirirlər. Yəni Azərbaycan bütün sahələrdə olduğu kimi, yol infrastrukturunun dünya standartlarına uyğun olaraq inşa edilməsində öz qabaqcıl təcrübəsini və iş metodunu çox uğurla həyata keçirir. Bu mənada məlum qurumun yol çəkilişində müasir texnologiyalardan və texnikalardan peşəkarlıqla istifadə etməsi birmənalı olaraq ona dəlalət edir ki, Azərbaycanın da yeni yolların tikilməsində öz təcrübəsi, öz qabaqcıl səmərəli iş metodu var. Əlbəttə, yolların tikilməsi və onun müasir standartlara cavab verməsi nə qədər çətindisə, onun qorunması və mühafizə edilməsi də bir o qədər məsuliyyətli bir işdi.



***Sirr deyil ki, əvvəllər iri tonnajlı maşınlara normadan artıq mişar daşı, qum, çınqıl və digər tikinti materialları yığırdılar. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi ilə Baş Dövlət Yol Polisi İdarəsi bu cür sürücülərə qarşı davamlı olaraq ciddi mübarizə aparır, qanunu pozan şəxslər cərimə edilir və məsuliyyətə cəlb olunurlar. Amma məsələnin bir tərəfi də var ki, yolların mühafizəsi və qorunması tək bu iki qurumu narahat etməli deyil . Ən azından ona görə ki, yollardan istifadə edən ağır tonnajlı avtomobilləri idarə edənləri və digər sürücüləri də ciddi düşündürməlidir. Çünki ölkənin prezidenti cənab İlham Əliyev hər il avtomobil yollarının tikintisinə milyonlarla vəsait ayırır. Bu vəsait ilə isə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi dünya standartlarına cavab verən müasir avtomobil yolları inşa edir.***

Deməli, burda hər bir insanın və hər bir vətəndaşın məsuliyyət məsələsi də gündəmə gəlməlidir. Ona görə ki, bu yollar, bu rahat avtomobil yolları milyonlarla insana xidmət edir.

### *Və milyonlarla insanlar*

da onlara xidmət edən avtomobil yollarını imkan daxilində ağır yük aparmamaqla, normadan artıq tikinti materialları daşımamaqla qorumaq imkanına malikdilər. Ən azından ona görə ki, bu yolları tikən və istismara verən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin uzun illər çəkdiyi əziyyəti yerə vurmaq olmaz.

**Deməli, bu yollar həm də bizim hər birimizin yoludur. Belə ki, biz istənilən vaxt evimizdən çıxıb harasa ya istirahətə, ya müalicəyə, ya da xeyrə-şərə gedirik. Biri var narahat yolla gedəsən, min bir çətinliklə üzləşəsən, biri də var, heç bir problem yaşamadan və təhlükə hiss etmədən mənzil başına çatasan. Qoy yollarımız həmişə bax, belə aydın, rahat və müasir dünya standartlarına cavab versin. Və biz də bu yollarla bayaq dediyimiz kimi, ürəyimiz istədiyimiz yerə gedib çata bilək.**

**Faiq QİSMƏTOĞLU**

## *Əfqanıstanda raket evə düşdü*



**Əfqanıstanda raketin evə düşməsi nəticəsində azı 5 uşaq həlak olub.**

Bu barədə "Tolo News" xəbər yayıb. Qeyd edilir ki, hadisə Nanqarhar əyalətində qeydə alınıb. Əyalətin qubernatorunun ofisi bildirib ki, hadisə zamanı həmçinin yaşca böyük olan daha 1 nəfər həlak olub, eləcə də 4 nəfər yaralanıb.

## *Yaponiyada 600 aviareys təxirə salındı*



**Yaponiyada "Hayşen" qasırğası səbəbindən ən azı 579 daxili reys təxirə salınıb. Bu barədə NHK telekanalı məlumat yayıb.**

Kyusu adasında sürətli qatarların hərəkəti dayandırılıb, bir sıra qonşu bölgələrdə isə marşrut üzrə hərəkət edən qatarların sayı azaldılıb. Təhlükəsizlik məqsədi ilə tropik qasırğanın keçdiyi ərazilərdə avtomobillərin hərəkətinə məhdudiyyət qoyulub.

## *Çində silahlı şəxs məktəblilərə hücum edib*



**Çinin Hunan əyalətində bıçaqla silahlanmış şəxs məktəblilərə hücum edib.**

İnsident Tsyantszyatsze şəhərində yerləşən məktəblərin birininqarşısında baş verib.

Məlumata əsasən, insident nəticəsində 4 məktəbli xəsarət alıb.

Bildirilir ki, hücum edən şəxs polislər tərəfindən saxlanılıb. Xəsarət alan məktəblilələr xəstəxanaya yerləşdirilib.

**MEHRİBAN**

*Elman Mustafa Cıvıroğlu*



# TÜRKÜN HƏM QIZI, HƏM ANASI

**Türkiyə bugün sözdə muxtariyyət istəyən və onlarla əməkdaşlıq eləyən şəxslərin işinə yarayacaq saxta azadlıqla başlarını aldatmaqla parçalanmanın kandarına itələnməkdə (hətta deyərdim ki, parçalanmanın içindədir), dini şəxsi mənafeləri üçün istifadə edənlər Cümhuriyyətin varlığını zədələmək, yox etmək üçün çalışmaqdadır. Bugün türklüyə, milli varlığa, türk kimliyinə qarşı məkrli bir Səlib yürüşü başlanıb. Türkiyənin başının üstünü qara buludlar alıb. Türkiyə layiq olmadığı əzab-əziyyətli günləri yaşayır.**

Və təbii olaraq bu əzablara, fırtına buludlarına imperiyalizmin və onları dəstəkləyənlərin təhdidlərinə qarşı meydan oxuyurmuş kimi bir mübarizə səsi yüksəldi bugünlərdə. Bu səs, bu haqırtı Cümhuriyyətin, Milli varlığın yeni bir qurtuluşu yolunda insanların gözləntilərinə cavab oldu. Bu səs Meral Akşener idi.



Meral xanımın Türkiyəni rayon-rayon, şəhər-şəhər, kənd-kənd gəzib milləyinə, dərd ortaqlarına üz tutaraq hər cür çətinlikləri, təzyiqləri gözə alaraq və hiylələrə sinə gərərək



Cümhuriyyət və Milli varlığın qurtuluşu yolunda sona qədər savaşacağını ortaya qoyaraq odlu-alovlu çıxışları ilə xoşniyyətli bir dalğalanma yaratdığını, aydınlıqdan, işıqlı günlərdən müjdə verdiyini görəndə hamının bildiyi çox çətin Mütareke günlərini xatırladım.

***15 May 1919. İngilis donanmasının himayəsində yunanlar İzmiri işğal elədi. Hələ üç gün keçməmiş işğala qarşı etiraz aksiyaları, mitinqləri ard-arda düzüldü. Sultanəhməd mitinqi bu mitinqlərin ən unudulmazı oldu. Bütün İstanbulun qoşulduğu bu mitinqdə qa- r a geyinmiş Halide Edibin çıxışı bir haqırtı kimi yüksəldi və bütün İstanbulu coşdurdu. Milli Mübarizəyə çağırış idi bu çıxış.***

Halide Edib hərbi forma geyinib ilk günlərdə Milli Mübarizəyə qoşuldu. Amma arxa cəbhədə olmağı qəbul eləmədi və öz istəyilə Ali Baş Komandan Mustafa Kamal Atatürkün icazəsilə ön cəbəhəyə getdi. Böyük bir həyəcan içində cəbhədə xidmət etdi, bir müddət də xəstəxanada işlədi. İstiqlal Savaşı müddətini şəxsi müşahidələri əsasında yazıya çevirdi. Mustafa Kamal Atatürk üçün anlatdıqlarının birində deyir: "Biz Ankarada o günlərdə Mustafa Kamal Atatürkü bu hərəkətin ən canlı şəxsiyyəti hesab edirdik. Çalışır, danışır, ətrafa dağılan qüvvətləri bir yerə yığmaq üçün dayanmadan səy göstərirdi".

Halide Edibin Milli Mübarizə günlərindən bəhs edən yazıları sənət dəyəri daşımaq və ədəbiyyatda önəmli yer tutmaqla yanaşı, şəxsi müşahidələrə dayanaraq qələmə alınan bu yazılar savaş anlarını çox aydın şəkildə görməyənlər üçün, sonrakı nəsillər üçün çox dəyərli materialdır.

***Bakıdan çıxan "Xəzər" dərgisi 1992-ci il I və II sayında H.E. Adıvarın "Kuvay-ı Milliye" ruhunu və Milli Mübarizəni, İstiqlal Savaşını dastanlaşdıran "Atəşdən köynək" romanını mənim "Türkün həm qızı, həm anası" başlıqlı tanıtım yazımla birlikdə dərc etdi. Bunların altından xətt çəkib bildirirəm: Mən H.E. Adıvarın məşhur Sultanəhməd mitinqindəki alovlu çıxışını və hərbi formada onbaşı olataq Milli Mübarizəyə qoşulduğunu, şəxsi müşahidələrimə dayanraq Atatürkün və dostlarının, Kuvay-ı Milliyəçilərin Atatürkün rəhbərliyi altında türk millətinin zəfərə doğru əzmli yürüşlərini canlandıran təsvirlərini diqqətə çəkərək belə bir başlıq qoydum.***

Və bu gün Meral Akşener hadisəsi. Bugün Meral Akşener imperiyalizmin və onun tərəfdarlarının, separatçıların təhdidi ilə qarşı-qarşıya qalan Türkiyə Cümhuriyyətinin, Milli Varlığın qurtuluşu yolunda hiylələrini gözə alaraq və bütün bunlara mərdi-mərdanə sinə gərərək yoldaşlarıyla birlikdə müqəddəs bir savaş başlatmış və "Türkün həm qızı, həm anası" olmağı dəfələrlə haqq etmişdir. Meral Hanım sabahın və sabahkı günlərin bütün müsbət və mənfi tərəflərindən kənarda belə tarixi bir vəzifəni yerinə yetirdi və yerinə yetirir. Müxalifət cəbhəsində yeni bir canlanma havasının yaranmasına yol açır. Ata-babalarımızın yüz illərin süzgəcindən keçərək günümüzə gəlib çatmış bir məsəli vardır: "Aslanın dişisi, erkəyi olmaz". Bu məsəl Meral Akşenerin şəxsində bir daha özünü doğrultdu.

(Bunu da qeyd etməliyəm ki, Halide Edib və Meral Akşenerdem bu kiçik yazıda söz açarkən onların arasında bəlli fərqliliklərin də olduğunu əsla gözardı etmək niyyətində olmadım).

Qazilik yolundadır Meral xanım. Amma şəhid də ola bilər (Allah qorusun!). O, qarşı cəbhədəkilər bir yana, bir zamanlar dost görünənlərin zərbəsilə də mübarizə aparmaq məcburiyyətindədir.

Onun və onunla birlikdə addım atan yoldaşlarının savaşı mübarək olsun!

### Türk`ün Hem Kızı, Hem Anası

*Türk`ün yer yüzünde gürledi sesi:*
*Gül Adalet dedi, gül Kural dedi.*
*Sinsi tuzağında Türk`ün Töresi*
*Kurtarıcım sensin, gel Meral dedi.*

*Vatanın atılgan Hatun Gazisi*
*Gönlünde hükmeder ulus yazgısı*
*Şu Bilge Hatuna`a alın yazısı*
*Türk`ün dertlerini ele al dedi.*

*"Aslanın erkeği dişisi olmaz",*
*Dorukta bahçe var sararıp solmaz,*
*Sordum hak yolunda kimdir yorulmaz?*
*Çiçek Meral dedi, Gül Meral dedi.*

**May, 2016**

**Dilimizə uyğunlaşdıran:**
**Eminquey**

# Dərd Qayası

## (Əbülfət Mədətoğlunun "ancaq O" kitabı ilə bağlı düşüncələr)



*Azad Müzəffərli*
*Əməkdar jurnalist, yazıçı*

**"COVİD-19" adlı kabusun bizləri ev dustağına çevirdiyi indiki dövrdə ələlxüsus da qələm əhli daha çox kitablara üz tutur. Həmin baxımdan dostum, tanınmış şair-puplisist, Əməkdar jurnalist Əbülfət Mədətoğlunun bu günlərdə mənə hədiyyə etdiyi, "Adiloğlu" nəşriyyatında yenicə çapdan çıxan "ancaq O" adlı kitabı da lap yerinə düşdü. O, bu dəfə də oxucuları ilə görüşünə əsasən "Bir qadına" silsiləsindən say-seçmə seirləri ilə gəlib. "Yeni səs" saytının baş redaktoru Fəridə xanım Rəhimli Əbülfət Mədətoğlunun növbəti kitabının redaktorudur. Onun kitaba ön söz əvəzi yazdıqları oxucuları xəyallar dünyasına səsləyir: "ancaq O" yaşanmış, yaşanan və yaşanacaq duyğuların özü və pıçıltılarıdır... "...ancaq O"-nu oxuyun!.. Yaşadıqlarınızı yenidən yaşayın, yaşayacaqlarınızın xəyalını qurun...düşünün... Doğrudan da elə kitabın girişindəki, Əbülfətin sevgisinin himni təsiri bağışlayan "ancaq O" şeiri səni xəyalllar dünyasına qanadlandırır...**

*Dan üzüm, aylı gecəm*
*Onsuz heç kiməm, heçəm!*
*Bir də doğulub seçsəm -*
*Ancaq O!*

*Haqqın yerdə zərrəsi*
*Ruhun şehli - tər səsi!*
*Ürəyimin pərdəsi -*
*Ancaq O!*

Əbülfət Mədətoğlunun istənilən kitabını əlinə götürməyinlə poetik ovqata köklənməyin bir olur. Onun şeirlərinin bədii-estetik dəyəri ölçüyəgəlməzdir. Anındaca gözlərin önündə kədər dəryasının mahir qəvvası canlanır. Şeirlərdəki dərindən də dərin emosional qat maqnit kimi səni çəkir. Poetik həzinliklə - lal nəğmələrlə baş-başa qalırsan. Onun şeirləri həm kllasik dövrün, həm də bu günündür...

*Bağçamdakı güllərin*
*Ləçəklərin də saydım...*
*Çiçək kimi qızların*
*Göyçəklərin də saydım -*
*İlk sənin adın oldu...*

Əbülfət Mədətoğlu yaradıcılığının özəlliyi ondadır ki, qələm əhlindən kimsənin çığırına gözaltı belə nəzər yetirməz, eləcə də, kimsə də onun ləpirlərinin izinə belə düşə bilməz. Şeirlərindən bəllidir; dünyadan adi insani istəklərdən savayı fövqəladə heç nə ummaz. O, pıçıltılarını, etiraflarını, iç dünyasında yaşadıqlarını gündəlik bölüşən yeganə şairdir. Əbülfət müəllim Dərd Qayasıdır, bu qayadan ovulan qum dənələri nəzmə çəkdikləridir, bu nəsnələr təkrarsızdır. O, dərdlə əzəldən qolboyundur. Onun şeirləri gah dağlardan boylanır, gah da buludlardan ələnir...

*Mən seçmədim, özü tapdı, bəyəndi*
*Ürəyimin düz əyninə gəldi dərd...*
*Göbəyini mənlə kəsdi həsrətin -*
*Nübarın da elə özü dərdi, dərd!*

Azərbaycan dilinin şəhdi-şirəsi Əbülfət Mədətoğlunun şeirlərinin mayasındadır. Onun qələmə aldıqlarını oxuduqca doğma dilini daha dərindən bağrına basırsan. Bu dilin imkanlarının sərhədsizliyi ilə üzbəsurət olursan. O, elat "dili"nin də mahir bilicisidir. Əslində, bu şeirlər Azərbaycan türkcəsinin dolğunluğuna şəkk gətirənlərə danılmaz cavabdır. Şairin sözlə davranış məharəti həsəd doğurur. Ən əsası, onun öz ana dilinə sevgisinin "O"na bəslədiyindən qətiyyən əksik olmadığına şəkki-şübhən qalmır...

*Yorulmuşam kədəri*
*Əynimdə daşımaqdan...*
*O da bezibdi məni -*
*Çiynində daşımaqdan...*

*Biz, dil tapa bilmədən*
*Bir ömürə şərikik...*
*Eyni naxış - ilmədən*
*Qoşalaşıb gəlirik...*

Əbülfət Mədətoğlunun şeirləri fəlsəfi çəkisi ilə də diqqəti çəkir. Onun yazılarında kəlamlar sıralanıb. Dədə Qorqud ruhu cövlan edir onun yaradıcılığında. Dərsliklərə salınası xeyli şeiri var, həm bədii dəyərinə, həm də doğma dilimizi maksimum ehtiva etdiyinə görə...

*Mən səhəri göy üzündə açmışam*
*Ulduzları saya-saya baxışla...*
*Hörüyünə bir bənövşə taxmışam -*
*Yuxudaydın... oyatmadım... bağışla...*

Şair yurd həsrətinə də sinə gərməkdə dözümü "O"ndan alır. Həqiqətən tarixə düşəcək bir sevgidir Əbülfət Mədətoğlunun məhəbbəti. Ömürün müdriklik çağında da seçiminə bir daha haqq qazandırır. Səhəri dirigözlü açanda da duası "O"nadır. Qibləsi sevgidir. Dan üzü onun üçün sevgi ilə sökülür. Günəşin al şəfəqləri onun eşqinin cığırlarıdır. Məhəbbətdə Füzuli sevdasından xeyir-dua alan Əbülfət Mədətoğlu artıq özü də bu yöndə əzəmətli yol salıb. Sinəsi sevgi gündəliyidir. Onun eşqi öləzimək nədi, əksinə, getdikcə daha da gurlaşır. Bu eşq tonqalının alovunun dilimləri şahə qalxır. Bu, bahar tonqalıdır, sevgi ətirli. Əbülfət Mədətoğlunun eşqi bahardan savayı fəsil tanımır. Bax, onun sözdən don geyinən sevgisinin əzəməti, bənzərsizliyi bundadır. Qələmə aldıqlarının ətri tükənməzdir, təravəti də bir an belə əksilməz. Bizə Əbülfət Mədətoğlu kimi söz xiridarını, sevgi timsalını yetirən həm də "O"dur. Şair pıqqa-pıqq qaynayan eşq tiyanında ucsuz-bucaqsız okean təkin o baş-bu başa sözlə avar çəkməkdədir...






*Ruh ki, kükrədi, coşdu*
*Əzabları da xoşdu!*
*Cənnət gerçəksə, boşdu -*
*SEVGİSİZ!*

Qələmi bircə gün belə əldən qoymayan, mürəkkəb əvəzi sevgisinə tuşlayan Əbülfət Mədətoğlunun yazdıqları qətiyyən kəsərdən düşmür bu qədər məhsuldarlığın qarşılığında.

Şair sözlə artıq "O"nun timsalında daha bir nadir sevgi əfsanəsinin heykəlini ucaldıb.

O, öz yaradıcılığı ilə çoxdan sübut edib ki, sevgidən yoğrulan Tanrı fəlsəfəsinin xiridarlarından biridir.

Əbülfət Mədətoğlu sözdən elə sevgi xalıları toxuyur ki, onların naxışları təkcə Qarabağ mahalını ehtiva etmir, əslində bütün, lap bütöv Azərbaycana məxsusdur. Bu qələm əhlinin yaradıcılığı səmimiyyət bulağıdır, qətiyyən lillənməz. Onun şeirlərinin əksəriyyəti bir gecədə göyərir, poeziyasının sirri-sehrinə düşməmək mümkün deyil...

*Varlığına səcdə varsa,*
*Səcdəgah Allah, həm yarsa...*
*Məni bu sevgi aparsa -*
*Nə gözəl!..*

Əbülfət Mədətoğlunun yurd həsrətli şeirləri də təkrarsızdır, anbaan yaşantıların bədii biçimdə görüntüləridir.

Həmin qəbildən şeirləri əksər hallarda həmkarlarınkını kölgədə qoyur. Bu, reallıqdır.

Təsəvvür edin, milyonu ötən qaçqını, məcburi köçkünü olan bir məmləkətdə kimsə bu şeirlərə biganə qala bilməz. O cümlədən qaçqınların, məcburi köçkünlərin özləri belə şairin yurd həsrətinin dərinliyinə və yüksək əyarına heyrətdə qalırlar...

*Əriyir ömrüm, yaşım da,*
*Əriyir dağım, daşım da!*
*Papağım düşmən başında -*
*Bakıda papaq gəzirəm!..*

Doğma yurdu bağrına basmaqdan yorulmur. Onun yurd həsrəti dərindən də dərindir. Bu da təsadüfi deyil, onu yaxından tanıyan dost kimi əvvəlki yazılarımın birində bu barədə demişdim. Axı, Əbülfət Mədətoğlunun indiki yurd həsrəti əvvəlki nəsillərinin Qərbi Azərbaycanla bağlı nisgilinin üstə qərar tutub. Şairin əsli Naxçıvan və indi yağı düşmənin özünə "Vətən" elədiyi ellərimizə qədər gedib çatır. Onun yurd həsrətinin şiddəti həm də bu reallıqdan qaynaqlanır...

*Gör necə duman var, gör necə çən var*
*Ruhumun oxşarı - gör neçə tən var...*
*Tay deyə bilmirəm ana, Vətən var -*
*Gedə bilmirəmsə, mən necə deyim?..*

Ömrünü yüyənsiz, yəhərsiz illərə bənzədən, bu ömrün yalmanına heç cür yata bilmədiyini hayqıran şair ruhuna dağları birər-birər hopdurub. Xatirələrin ətrindən doymaq bilməyən, düşüncələrin çətirinə sığınan Əbülfət Mədətoğlunun doğmaca kəndini bağrına basmadığı gecə-gündüz yoxdur. Sinninin bu çağında da şair hələ də kənd uşağıdır. Vaxtilə dəcəlliyin dadını doyunca çıxarıb, mal-qara da, davar da otarıb, quzu səsləyib. Şəlalə altında yuyunub, ağacların ən hündür budaqlarına yüyürə-yüyürə çıxıb. Böyüklərin qarşısında elimizin adət-ənənəsinə uyğun daim müntəzir olub, bu hələ də canında-qanında olduğundan lap elə bu yaşında da belədir...

*Dizim torpaq yalayıb*
*Dırnaqlarım şum edib...*
*Dərdlər məni üyüdüb -*
*Qaya idim - qum edib...*

Şair yurd həsrəti ilə sevgini tərəzidə elə taraz yerləşdirir ki, məəttəl qalırsan. O, fəzilətlər labrintində var-gəl eləməkdən yoruldum demək bilmir. Təbi Tanrıdandır. O, "SÖZ" ün ocağını gündəlik körükləyən şairlərdəndir. Gün ərzində "SÖZ"lə qurşaq tutmaqdan yoruldum demək bilmir. Onun əsasən üç-dörd bəndlik şeirlərinin xeylisində bir poemanın yükü var...

*Hər an azalsa da səbir, dözüm də*
*Cənnət bu dünyadı - Sənlə, gözümdə!*
*Elə gizlətmişəm Səni özümdə -*
*Təkcə Allah görür, bir də ki, ruhum!*

Əbülfət Mədətoğlu eşqini köksündə dünyaya göz açdığı, daxili dünyasına sinirdiyi dağlardan əxz eləyib. Ona görə də o, sevgiyə daim başlı qarlı uca zirvələrdən boylandığından onun məhəbbəti pakdır, safdır, müqəddəsdir və müstəsnadır!!!

*Açıq qapı, ya pəncərə...kim döyər*
*Kim sevgini Əbülfəttək, de, öyər?!*
*Səni belə niyə sevdim, kim deyər? -*
*Bunu özüm sirr bilirəm hələ də!..*

Həyat yoluna sevgisi gur işıq saldığından illərin də onun yadından nəyisə silməyə gücü çatmır. Xatirələrini alovlandırdığı tonqala kösöv əvəzi tolazlayan şair bəzən ürəyini adicə bir məktuba da bükmək qüdrətində olur. Bu, nadir insanların, qələm əhlinin çəkə biləcəyi yükdür...

*Bir məktub*
*yazmaq istəyirəm*
*özü də kağızsız...*
*qələmsiz...*
*Və*
*həm də sözsüz...*
*kəlamsız...*
*Onu alan kimi*
*oxuyacağını*
*bilirəm,*
*hətta,*
*oxuyub kövrələcəyinə də*
*içimdə,*
*bax elə indidən -*
*sevinirəm...*
*Çünki,*
*o məktuba*
*ürəyimi bükəcəyəm!..*
*Və...*
*qəfil gəldi ağlıma*
*bu sual -*
*indi,*
*de görüm mənə,*
*bəs, o məktubu sənə*
*necə göndərəcəm?!*

Əbülfət Mədətoğlunun ruhu daim Göylərdə cövlan elədiyindən Yerə sığmayan şair olsa da, təvazökarlığı əskilməz, döşünə döymək onluq deyil. Dağların vüqarından dərib qürurunu. Onun yaradıcılığında süniliyə, pafosa qətiyyən yer yoxdur. Şeirlərinin əksəriyyəti pıçıltılarından qaynaqlanır. Yaxından tanıyanlar bilir, o, susanda da danışır, qulaq kəsilə bilsən pıçıltılarını mütləq duyacaqsan. Şeirlərinin əksəriyyəti gecələr doğulur. Dərdləri ilə pıçıldaşmaq şakəridir. O, Tanrıdan dərs alan kəslərdəndir...

*Heç nə yaza bilmədim,*
*göynədi vərəq - sinə...*
*Unutdum... və getmədim -*
*Tanrının son dərsinə...*

İnanın, mənə elə gəlir ki, Füzuli sağ olsaydı, Əbülfət Mədətoğlunun şəxsində mütləq indiki dövrün Məcnununu sözlə heykəlləşdirərdi. Bəlkə də, ustad şair artıq bunu ruhu ilə qələmə alıb, nə bilmək olar?! Həmin Məcnunun Leylisi isə Əbülfətlikdir, onun yaratdığıdır! Eşqin etalonu səviyyəsinə yüksələn Füzuli də, məncə, bununla birmənalı razılaşardı...

*Tellərin uzanan yolum*
*Burulub qayıdır sənə...*
*Hər yandan Məcnun bu könlüm*
*Vurulub qayıdır sənə -*
*Dəlisi olduğum Qadın!*

Ədalət naminə, onu da deməliyik ki, Əbülfət Mədətoğlunun say-seçmə şeirlərinin kölgəsində qalan poetik nümunələri də var. O, əksər şeirlərini "ütüləmədən" nəzmə çəkir. Di gəl, bu anlaşılandır. Ən azı yurd həsrəti, hələ də yağı düşmənin tapdağında olan torpaqlarımızın ağrı-acısından qovrulan şairin gündəlik olaraq qələmə sarılması başa düşüləndir. Bu, mahiyyətcə məhsuldarlığa dəlalət etmir. Sadəcə, o, qismən də olsa, bu yolla ovunur, ümidini körükləyir. Ucsuz-bucaqsız eşq dəryasındakı yaşantıları da ona aman vermir. Danılmaz reallıq isə odur ki, ədəbi tənqid Əbülfət Mədətoğluna münasibətdə hələ də səsini qısır. Təəssüf ki, Azərbaycan ədəbi səltənətinin azmanlarından, ustad yazıçı Elçinin "Əbülfət poeziyasının bədii-estetik səviyyəsi ədəbi prosesin faktına çevrilməyə layiqdir!" kəlamı da ədəbi tənqidçiləri qədərincə yerindən dəbərtməyə yetmədi. İnşallah!!!

**Əbülfət, qardaş, sənə bolluca səbir, ən azı yurd həsrətinə son qoyulmasını və Tuğda da qələm çalmağını arzulayıram!**

# YAMANLIQDAN YAXŞILIĞA DOĞRU



*Qədir Tərtərli*
*AYB-nin üzvü, "Qızıl Qələm" mükafatı laureatı, Tərtər Ağsaqqallar Şurasının sədri.*

**İnsan doğulanda günahsız doğulur. Hamısı eyni biçimdə, eyni formada. Məsum körpə təbəssümü oxşayır qəlbini. Fərəhlənirsən, sevinirsən. Sevinirsən ki, dünyaya insan gəlib. Dünyanı gözəlləşdirmək, sevmək və sevdirmək üçün! Bu məsum körpə dünyaya göz açanda da sanki gözəgörünməz bir xilqətin dili ilə pıçıldayıblar qulaqlarına: "Sev! Yaradanın səni sevmək və sevilmək üçün yaradıb. Torpağını sev, Vətənini sev, həmjinsi olduğun insanları sev! Təkcə dediklərimi yox, sevilməyə layiq olanların hamısını sev! Sevgi Allah nemətidir, Allahın öz bəndələrinə bəxş etdiyi əvəzsiz ərmağandı. Allah da çox sevir sevənləri, xətrini əziz tutur onların. Həyat onu sevənlərin, qiymətləndirənlərindi. Sevmək və sevilmək üçün yaşayanlarındı. Çalış gözəlləşdir qoynuna atıldığın bu həyatı. İşdir, əgər bunu bacarmayacaqsansa, heç olmasa, yük olma həyata, yük olma yarandığın bu torpağa!".**

Lakin heç də həmişə belə olmur. Eyni biçimdə, eyni formada olan insan tədricən böyüdükcə dəyişir formasını. Həm də təkcə formasını yox, əqidəsini, məsləkini, həyata baxışını da dəyişir. Mühit başqalaşdırır, başqa ruhda, başqa biçimdə böyüdür onu.

### Özü də bilmədən,

özündən xəbərsiz şeytan girir ürəyinə. Allahın dərgahından qovulan, təkəbbürlüyü, eqoistliyi ucbatından hamının nifrətini, lənətini qazanan şeytan! Var gücü ilə həmişə insandan qisas almağa, onu düzgün yolundan sapdırmağı çalışan şeytan! Böyük Uavid elə buna görə insandakı naqisliyi, nankorluğu, onun xoşagəlməz cəhətlərini nəzərə alaraq özünün məşhur "İblis" əsərində yazırdı:

**İblis - o nədir? Cümlə xəyanətlərə bais,**
**Hər kəsə xain olan insan nədir, - İblis!**

Xainlik, bədxahlıq, naqislik, nadanlıq insan adı daşıyanlara yaraşmır. Ulu yaradan yaratdıqlarını bunun üçün yaratmayıb axı.

Düzgün yol göstərib, yuxarıda sadalanan məsləhətləri verib ona. Bəs, bu düzgün yoldan azıb özgə yola düşmək hardan ağlına gəlib onun? Bircə cavabı var bunların -İblisdən, şeytandan!

Həyat gözəldir. Onun gözəlliklərindən zövq alıb yaşamaq daha gözəldir. Elə dövlətimiz də, onun başçısı da məhz elə buna görə çalışmırmı?

### Gözəl həyatı daha da gözəlləşdirmək,

yaramışların əşrəfi olan insanları daha yaxşı yaşatmaq, günlərini, güzəranlarını daim yaxşılaşdırmaq, həyatı durmadan inkişaf etdirmək, gözəl olmayanları gözəlləşdirmək əsl amalı, məqsədidir onların.

"Tək əldən səs çıxmaz" - deyiblər. "El gücü - sel gücüdür" - deyənlər də bu sözü nahaq deməyiblər ki!

***Həyatı sevənlər, onun qədir-qiymətini bilənlər özlərinin əsas məqsədləri, iş proqramları hesab ediblər bunu. Həmişə yorulmadan çalışıb torpağa tər tökməyə, zəhmətlərinin bəhrəsini görməyə çalışıblar.***

Məgər respublikamızda son illər əldə etdiyimiz bütün nailiyyətlər, kənd təsərrüfatında, sənayedə, nəqliyyatda, tikinti-quruculuq və abadlıq işlərində qazanılan uğurlar elə bunun nəticəsi deyilmi? Ölkə başçısının sosial sahələrə xüsusi diqqət yetirməsi, şəhid ailələrinə, qaçqınlara, köçkünlərə hər cür yardım göstərməsi təqdirəlayiq hal deyilmi?

İndi gəlin görək hamımız görülən bu işlərə yüksək qiymət veririkmi? Həyatı daha da gözəlləşdirmək, işimizdə mövcud olan bu və ya digər nöqsanları aradan qaldırmağa çalışmaq istəyirikmi? Çətindir, bu suallara bütünlüklə müsbət cavab vermək çətindir!

Beş barmağın beşi də eyni cür olmadığı kimi, adamlarımızın da hamısı eyni cür olmur. Topağa tər töküb çalışanlarına, həyatı gözəlləşdirmək üçün əllərindən gələni etməkdən ötrü var qüvvələrini sərf edənlərinə də rast gəlirsən, "dünya beş gündür, beşi də qara" deyib, ömrünü eyş-işrətlə, tüfeylikliklə keçirənlərinə də!

***Oxumaq, yetərincə təhsil alıb Vətənə, xalqa xeyir vermək üçün xeyirli işlərdən yapışmaq əvəzinə ancaq qarnını doldurmaq arzusu ilə yaşayanları görəndə təəccüblənirsən. Sərxoşluq, narkomanlıq, insana yaraşmayan hərəkətlərə meyillilik ətində, qanında olur belə adamların.***

Televiziyadan ürəkaçan şad xəbərlər eşitmək arzusu ilə ona yaxınlaşanda bəd xəbərlərlə qarşılaşırsan. Atasını, anasını, ömür-gün yoldaşını, qardaş-bacısını, hətta dilbilməz körpələrini də qətlə yetirən qatillərin hərəkətləri sarsıdır varlığını, varından yox olursan.

Məyər sərxoşluğun, narkomanlığın, xoşagəlməz, tükürpədici halların bəlası deyilmi bunlar? İstər-istəməz özün özünə sual verirsən: Niyə kökü kəsilmir, qarşısı alınmır bu cür halların? Nə vaxta kimi davam edəcək bunlar?

Televiziya ekranına diqqətlə nəzər yetirirsən, nə görsən yaxşıdır? Hətta polis əməkdaşlarının təkidi ilə tamaşaçılara təqdim edilən belə cinayətkarların, oğurluq, soyğunçuluq və digər iyrənc hərəkətlərlə məşğul olanların utanıb çəkinmədən, xəcalət çəkmədən öz cinayətlərini etiraf etmələrini eşidəndə heç cür dözə bilmirsən.

### Belələri haqqında

"faktla bağlı cinayət işi qaldırılıb, araşdırma aparılır" sözləri istər-istəməz təəccübləndirir adamı. Aydındır ki, cinayət cəzasız qala bilməz. Görəsən bəs, bu cür qatı cinayətkarların cəzasının cavabı nə olur? Niyə bunların nəticəsi aşkarnıb çatdırılmır ictimaiyyətə?

**Söz yox ki, törədilən cinayətlərin nəticəsi aşkarlanıb hamıya çatdırılarsa, gələcək cinayətlərin müəyyən qədər aradan qaldırılmasına kömək edər.**

Biz yuxarıda azacıq da olsa, son illər ayrı-ayrı sahələrdə qazanılan nailiyyətlərimizdən söz açdıq. Şübhə yoxdur ki, əldə etdiyimiz bu nailiyyətlər istər-istəməz bizi istəməyənlərin - həm xarici, həm də daxili düşmənlərimizin narahatlığına səbəb olur, onların gözünü qamaşdırır.

Suvl olunur: nə üçün belədir bu? Onların istədiyi nədir? Uavabı aydındır bu sualın. Bizim inkişafdan geri qalmağımız, tərəqqidən tənəzzülə enməyimiz! Bizi istəməyənlərin, əsas düşmənimizə havadarlıq edib, onların dəyirmanına su tökənlərin, üzdə bizi tərifləyib, arxada ikili standartları özləri üçün qanun hesab edənlərin istəyidir bu!

**Yox! Biz bu yolla gedə bilmərik. Bizim yolumuz başqadır. Bizi bu yoldan heç kəs döndərə bilməz. Bizim işıqlarımız həmişə gur yanmalıdır, qələbələrimiz düşmənlərimizin gözünü qamaşdırmalıdır!**

### Biz ürəyiyumşaq xalqıq,

humanist dövlətik. Paxıllıq yaddır təbiətimizə. Heç vaxt heç kimin heç nəyində gözümüz olmayıb. "Azacıq aşım, ağrımaz başım" misalı həmişə dilimizin əzbəri olub.

Heç uzağa getməyək. Erməniləri başqa regionlardan - İrandan, Türkiyədən gətirib bizə qonşu edəndə onlara qarşı öz xeyirxahlığımızı göstərmişik. Yaxşılıq etmişik, əllərindən tutmuşuq, süfrəmizin başında oturtmuşuq, yeməklərimizin yaxşısını onlara vermişik. Barlı, bərəkətli torpaqlarımızdan onlara pay verəndə: "nə olar, qəribdilər, qoy ürəkləri sınmasın" - demişik.

***Bəs, bu yaxşılıqlarımızın əvəzi nə olub? Nankorluq, paxıllıq, riyakarlıq, naqislik! Aşına-aşına, yavaş-yavaş ocaq başına çıxıblar. Yaxşılıqlarımıza yamanlıqla cavab veriblər. Zaman keçdikcə, hissə-hissə torpaqlarımızı qamarlayıblar. Dədə-baba kəndlərimizin adlarını dəyişdirib "haylaşdırıblar". Onları erməni adları ilə əvəzləşdiriblər. Sanki elə əvvəldən, necə deyərlər, döyrəl qədimdən dədələri Ambarsumdan qalıbmış bunlar. Musiqimizə, mədəniyyətimizə, mətbəximizə sahib olmağa çalışıblar. Milli qəhrəmanlarımızın bəzilərini özlərinə çıxıb özəlləşdiriblər. Koroğlumuzun uşaqlıqdakı Rövşən adını Xorsənə çeviriblər.***

Hansıları deyəsən? Birdimi, beşdimi belə iyrənc hərəkətləri?

Pislik, yamanlıq, yaltaqlıq, riyakarlıq xislətindədir onların. İstəsələr də, sonradan peşimançılığını çəksələr də, dəyişə bilməzlər bu adətlərini. Müdrik ata-babalarımız nahaq yerə deməyiblər ki, "südlə girən sümüklə çıxar".

Goruna qurban atalarımızın! Tarixə qızıl hərflərlə yazılmalı başqa bir sözü də var onların. "Yersiz gəldi, yerli qaç!" - sözüdür bu söz.

Utanmasan, oynamaq ar deyil. Sümüyünə düşdü, düşmədi girərsən oyuna. Kənardan o qədər lağ eləyənlər, bəyənməyənlər olsun ki! Bu da ermənilərin ətinə, qanına hopmuş adətdi, dəyişmək olmaz bu adəti. Necə ki, dəyişmir də.

### Tarix sübut edib ki,

***Ermənistan adlı dövlət olmayıb. Azərbaycan prezidenti cənab İlham Əliyev Münhen Beynəlxalq Konfransında Ermənistanın baş naziri Paşinyana tarix dərsi keçərkən konkret faktlarla sübut etdi bunu. O, deyib ki, ermənilər Azərbaycan torpaqlarının hesabına daim genişləndirməyə çalışıblar öz ərazilərini. Bir tərəfdən azərbaycanlıları öz dədə-baba torpaqlarından soyqırımı yolu ilə deportasiya etməklə, digər tərəfdən Azərbaycandan yeni ərazilər qoparmaqla.***

Axrıncı dəfə Dağlıq Qarabağın və ona bitişik 7 rayonun itirilməsi, işğala məruz qalması ermənilərin öz gücü ilə yox, havadarlarının gücü ilə baş tutub. Ermənilər tək-tək döyüşdə bunu heç vaxt bacarmazdılar. Necə ki, 2016-cı ilin aprel döyüşlərində və ən nəhayət, son günlər Tovuz döyüşlərində gördülər bunu.

İndi ermənilər də, onların baş naziri Paşinyan da utanıb-çəkinmədən həyasızcasına deyirlər ki, Qarabağ Ermənistandır. Təkcə Qarabağ yox, digər rayonlar da Azərbaycana verilə bilməz. Ölərik, bu yoldan dönmərik - deyirlər.

Uənab İlham Əliyev belə sərsəm xəyallarla yaşayıb, qarşımıza 7 şərt qoyan Ermənistanın baş nazirinə çox tutarlı cavab verib: "Əgər Ermənistanın baş naziri deyirsə ki, "Dağlıq Qarabağ Ermənistandır", əgər deyirsə ki, biz qondarma "Dağlaq Qarabağ respublikası" ilə danışıqlar aparmaq istəyirik, deməli o, danışıqları məhv edir. Mən 7 şərtin qarşısına bir şərt qoyuram, bir şərt - erməni silahlı qüvvələri işğal edilmiş bütün torpaqlardan çıxarılmalıdır. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan vətəndaşları öz dədə-baba torpaqlarına qaytarılmalıdırlar! Budur mənim şərtim və məsləhət görürəm ki, onlar bu şərti qəbul etsinlər".

### Biz çox yaxşı bilirik ki,

bizim məkirli, iddialı qatı düşmənimiz var. Onu da yaxşı bilirik ki, onları susdurmaq üçün hər cür imkanlara malikik. Biz onların hətərən-pətərən hədələrindən heç cür qorxub çəkinmirik. Bizi narahat edən başqa məsələdir.

Bizi narahat edən təkcə odur ki, hamımız ellikcə eyni fikrə düşüb, eyni sözü deyə bilmirik. Bölünürük, parçalanırıq. Unuduruq ki, Vətən birdir, bizim yalnız bir Vətənimiz var. Hamımız bu Vətənin rifahı, xoşbəxt gələcəyi üçün çalışmmalıyıq. Bu Vətənin çörəyi ilə böyüyən bəzi nankorlarımız xarici ölkələrə sığınıb onların verdikləri fitrə-sadağalar hesabına yaxşı işlərimizə qara yaxmağa çalışır, Vətənimizin milli və dövlət maraqlarına xəyanət edirlər.

Güc birlikdədir, hamımız birləşsək daha güclü olmarıqmı? Niyə başa düşmək istəmirik ki, Ermənistanda təkcə bir nəfər belə azərbaycanlı qalmadığı halda, onlardan bizdə olanları az deyil. Hələ də erməniyə işləyənlərimiz, sirlərimizi onlara çatdıranlarımız, ermənidən dayısı olanlarımız çoxdur.

Niyə hələ də müharibə şəraitində yaşadığımızı unuduruq biz? Niyə başa düşmürük ki, düşmənlərimiz bizim hər bir sözümüzdən, hər bir hərəkətimizdən öz xeyirlərinə istifadə etməyə çalışırlar?

Mən bununla bu yazıma nöqtə qoymaq istəyirəm. Amma qoyacağım o nöqtədən əvvəl hamımıza aid olacaq bu sözləri də deməyə ehtiyac duyuram:

**- Ay əti ətimizdən, qanı qanımızdan olanlarımız! Ay həmvətənlərimiz, ay eloğlularımız, ay bu Vətənin çörəyini yeib, suyunu içənlərimiz, havasını udanlarımız, vaxtdır daha, gəlin birləşək! Silkinək, çırpınaq, üst-başımızdakı toz-torpağı təmizləyək, qovaq içimizdəki şeytanları, bəsdir yamanlıqlar etdiyimiz! Gəlin yamanlıqlardan əl çəkib yaxşılıqlara doğru gedək!**

# DAĞLAR, VƏTƏN AMANATI



*Flora XƏLİLZADƏ,*
*Əməkdar jurnalist*
*Prezident təqaüdçüsü*

**Hazırda Sumqayıtda yaşayıb-yaradan Əvəz Mahmud Lələdağ təkcə Ağdü kəndinin, Qarakilsə bölgəsinin deyil, bütövlükdə Zəngəzur mahalının sayılıb-seçilən oğullarından, sinəsi şeirlə döyünən söz-sənət adamlarından biridir.**

Sumqayıtda müxtəlif məktəblərdə direktor vəzifəsində çalışan Əvəz Mahmud Lələdağ 35-ə yaxın kitabın, 585-dən artıq elmi-publisistik-metodik yazının müəllifidir. Onun pyesleri H. Ərəblinski adına Sumqayıt Dövlat Dram Teatrında tamaşaya qoyulub, televiziya ekranlarında səhnələşdirilib. Şairin poeziya aləmi ilə tanış olduqda duyursan ki, onun yaradıcılığının vətən həsrəti sarı sim kimi keçir. Ötən günlərin nisgili müəllifi xiffət içində göynədir. Bəzən də şairin şeirlərində dəsti-Şəhriyar xətti, ənənəsi duyulur:

*Kəklikotu, qantəpəri dərərdik,*
*Gündöyəndə seyrək-seyrək sərərdik,*
*Əvəliyi qız saçıtək hörərdik,*
*Vətənsiz beləcə saraldım, soldum,*
*Təbibsiz, loğmansız, dərmansız oldum.*

Bu bağlılığın, mənəvi yaxınlığın əsas kökü şair ürəyində iz salmış yurd həsrətidir. Bir vaxtlar öz soydaşlarının həsrati ilə qovrulan və uşaqlıq nisgillarini də bu dərdin üstünə əlave edərək "bir uçaydım bu çırpınan yelilə", deyən Şəhriyar həsrətinin davamı kimi Əvəz Mahmudun könül sarsıntılan adamın varlığını titrədir, ruhunu dara çəkir:

*Əriməzdə qarım qaldı,*
*Dağlar, qar amanatı,*
*Yarım gəldi, yarım qaldı,*
*Dağlar, yarım amanatı.*

Üz-üzə , göz -gözə dayanan ," lələ köçüb yurdu qalan" dağların əl-ətəyini gözləyən vəhşi çöl çiçəkləri qərib -qərib yollara baxırlar .Dağdağan ağacına qonmuş yaylım quşları qəfil açıla güllə səsindən diksinirlər.Başı qarlı zirvələr elat yollarının sükutuna dözə bilmirlər.Sinəsi boyu şırımlanan " göz yaşları" yla yas saxlayırlar.Bu dağlar yetim qalmış dağlarımızdı, o obalar dədələrimizin diz qatdadığı müqəddəs yerlərdi. Qədim türk torpaqlarımızda indi babalarımızın incidilmiş ruhu dolaşır.Ə.M.Lələdağ doğulduğu Zəngəzur ellərindən çoxdan ayrılıb. Amma " Tale məni buludlara qoşaydı" həsrəti xalqımızın başına gətirilən müsibətlərdən sonra göyərib.

*Bu qəflətdən ayılmayıb çoxumuz,*
*Yaman gözə bata bilmir oxumuz.*
*Nə müddətdir ərşə çıxıb yuxumuz,*
*Qan ağlayır ocaq daşı , yurd yeri.*

Qan ağlayan təkcə ocaq daşı , yurd yeridir mi? Şair zəncirdə qalan itlərin ayağı çıdarlı, kişnər atların , diri - diri yandırılıb kömürə döndərilmiş türk balalarının faciəsini mısra - mısra yaşayır. Havadarlarının köməyi və fitvasıilə təpədən - dırnağa qədər silahlanmış faşist erməni quldurlarının xalqımıza qarşı apardığı soyqırımı siyasətini lənətləyir.

İnsan nə qədər ki,doğulduğu yurdundan uzaqdir,beşiyinə, ilkinliyinə əli yetmir, doğrudan da, yarımçıqdır tam deyil. Əvəz müəllimin bu can yanğısını ancaq içində yurd həsrəti, Vətən dərdi çəkənlər duya bilər.Onun şeirlərində elə kövrək, həzin misralar var ki, oxuduqca sanki doğma yerlərin ətrini duyur, gözəlliklərini görürsən.

Onun şeirlərində bulaq suyu qədər saf, təbii bir axar var.

*Kəndimiz yuxuma girmişdi gecə,*
*Əlmərdan bulağı həzin axırdı,*
*Babamınsa ruhu Qızılqayadan,*
*Dayanıb nifrətlə mənə baxırdı .*

İndi gəl bu ittihamdan sonra döz, yaşa! Eh, yaşamaq deyil ki, bu, qardaşım, üzülməkdir, dirigözlü ölməkdir.

Əvəz Mahmud Lələdağın yaradıcılığında bu dərdlər ela təsirli dil açıb ki, itirilmiş yurd yerlerinin bütün mənzərəsi onun poeziyasında olduğu kimi əks edilib. Ömrünün müdriklik çağını yaşayan Əvəz müəllim sanki bir yolayrıcında dayanaraq özündən, onu əhatə edan insanlardan, üzləşdiyimiz bəlaların şahidlərindən, bir sözlə, hamıdan və taledən hesabat istəyir.

Nə idi bizim günahımız? Bu qədər uzun sürən ayrılıq olar? Amma nə vaxtsa yollarını toz basmış Vətənə dönəcəyimiz gün gələcək.

Əgər o yerlərin-Zəngəzurun, Göyçənin. Dərələyəzin çiçəyi, gülü, dağı, dərəsi, çeşməsi, gədikləri yadımızdan çıxmayıbsa, hər gecə yuxuda dağılmış yurd görürüksə, bulaqlardan su içiriksə, üzümüz dağlara sarıdırsa, ruhumuz orada dolaşırsa, demək, unudulmayıb Vətən. Məmməd Araz tebirine söykənsək, demək, vətən eşqimizə hələ qar yağmayıb. İnsanlar vəfasızdır bu dünya kimi. Ona görə də Vətəni əzəldən səngərli olanlara tapşırıb deyirik: dağlar, Vətən əmanəti! Zəngəzur mahalının Ağdü kəndində anadan olan, lakin hazırda Sumqayıtda yaşayan, ruhu ilə cismi didərgin düşən Əvəz Mahmud könül dünyasının ağrılarını misralarda göyərdərək ötən günlərinə tor atır. Tor hələ ki, bomboşdur. Bu nisgil misra-misra dilə gəlir:

*Ocaq, daşın olammadım,*
*Pir, başına dolanmadım,*
*Qoynunuzda qalammadım,*
*A yaylaqlar, a yaylaqlar.*

Yayda yaylaği, qışda oylağı. yazda seyrengahi olan dağlar Əvəz müəllimin poeziyasında ele mağrur və əzəmətlidir ki.. Çox arzulayardıq ki, şairin yeni doğulacaq şeirlərdə həsrət notlarn duyulmayaydi. Yurda qayıdışında doğulmuş sevinc dolu şeirlərini oxuyaydıq. Kaş bunlar xəyal olmayaydi. Bir gün ellikcə yığışıb Əvəz Mahmud Lələdag göz aydınlığı verərdik. Deyərdik ki, çəkdiyimiz intizara son qoyuldu. Nola, Tanrım, yurda qayıdış havasını ürəyimizin kökündəki qəmkədəri küləklərin qanadına yükləsin. "Vətən, yollarının tozu olaydıq" ahını bir daha çəkməyəydik. "Vətən, görüşünə gəlirik!",-deyə hayqırardıq.

Əvəz Mahmud Lələdəğ haqqında danışmaq mənim üçün Vətəndən söz açmaq deməkdir. Çünki Əvəz Mahmudun təbiətində o yerlərin saflığı, təmizliyi, əzəməti, vüqarı və xeyirxahlığı əks olunur.

### Dağlar məni

*Ayrıla bilmirəm şirin xəyaldan,*
*Çəkir ağuşuna o dağlar məni*
*Sinəmə çəkilən dağ-düyün oldu*
*Yamanca incidir o dağlar məni*

*O dağların hər yerində izim var,*
*Laləsinə, nərgizinə sözüm var*
*Boynu bükük bənövşədə gözum var*
*Ona dönük çıxsam o, dağlar məni*

*İllər ötdü gedəmmədim Vətənə*
*Söz demədim hər yanımdan ötənə*
*Yazıq Əvəz yaman düşdü çətinə*
*Yanar bu halıma, od ağlar məni*

### Hardan alım

*Zirvəsində qartal gəzən,*
*O dağları hardan alım.*
*Buz suları dik göynədən,*
*Bulaqları hardan alım.*

*Yaddan çıxmır Nuhun dağı,*
*İşıqlının kərə yağı.*
*Gicirtkanı , quzqulağı*
*Yığan yarı hardan alım.*

*Nə çovğun var , nədə sazaq*
*Cadarlanıb ana torpaq.*
*Lopa -lopa , papaq -papaq,*
*Yağan qarı hardan alım.*

*Əvəz burda gül gəzirsən,*
*Ləpənənən göl gəzirsən.*
*30 ildi el gəzirsən,*
*Xilaskarı hardan alım.*

### Nə qaldı

*Aylar keçdi, illər keçdi,*
*Sizə nə qaldı, nə qaldı,*
*Səksən beşi verdim yelə,*
*Yüzə nə qaldı, nə qaldı*

*Afat yeli əsdi, getdi,*
*Soyuq gəldi, isti getdi,*
*Ocaq söndü, tüstü getdi,*
*Közə nə qaldı, nə qaldı.*

*Dünyada dərd havası var,*
*İçimdə qurd yuvası var ,*



*Xeyirlə şər davası var*
*Təzə nə qaldı, nə qaldı.*

*Harın gəzdi harın-harın*
*Tapdaladı düz ilqarın*
*Hərif tixdi elin varın,*
*Bizə nə qaldı, nə qaldı.*

*Badanlar incidir bizi,*
*Silib atır izimizi.*
*Əvəz çox axtardı düzü*
*Düzə nə qaldı, nə qaldı.*

### Yenə qayıdaydım

*Yenə qayıdaydım o doğma kəndə,*
*Qapını üzümə anam açaydı.*
*Sevinci,fərəhi görəndə məndə,*
*Kədər sarsılardı, hicran qaçardı.*

*Açıb qollarını qucardı məni,*
*Telimdə gəzərdi ana əlləri.*
*Baxıb seyr edərdim çölü-çəməni.*
*Qayğısız görərdim bizim elləri.*

*Yaxın dostlarımla, sirdaşlarımla*
*Çıxaydım yenə də bulaq başına.*
*Gəzəydim uşaqlıq yoldaşlarımla,*
*Üzümü qoyardım Səhəngdaşına*

*Oğlanlar çıxardıq kəndin qaşına*
*Gözəl görünərdi Arzubulağı*
*Səhəng söykəyərdi Səhəngdaşına*
*Bu kəndin qızları hər axşamçağı.*

*Baxışlar, duruşlar, yerişlər təzə*
*Gülüşlər süzülüb suya axardı*
*Xumar gözlərini tumarlandırıb*
*Qızlar hərdən dönüb bizə baxardı.*

*Nələr oxuyardıq baxışlarda*
*Lalə yanaqlarda, lalə yanardı*
*Biz mərmər sinədə, narı görəndə,*
*Məhəbbət eşqimiz alovlanardı.*

*Gör məni hayana apardı xəyal,*
*Əridən olmadı dünya dərdimi,*
*Gülə bürünərdi o gözəl mahal*
*Görən o güllərdən Əvəz dərdimi?*

### Vətən

*Qoynunda and içdim, sədaqət andı,*
*Könlüm hər guşəni bir cənnət andı.*
*Eşqimin şamları əlinlə yandı,*
*Gül açdı xoş arzum diləyim , Vətən.*

*Ulduzu sayrışan göyün var sənin,*
*Yaxşıdan savayı nəyin var sənin.*
*Harda bərabərin ,tayın var sənin*
*Sinənə söykənib kürəyim , Vətən .*

*Sən məndən can istə verim can sənə,*
*Əvəz dönük çıxmaz heç zaman sənə .*
*A mehriban ana , mən qurban sənə,*
*Sənsiz buza dönər ürəyim , Vətən !*

### Yenə qayıdaydı o yaz gecəsi

*Yenə qayıdaydı o yaz gecəsi ,*
*Yenə görüşünə gələydim , gülüm .*
*Yenə başlayaydı o naz gecəsi ,*
*Sevinəydim gülüm güləydim , gülüm .*

*Yenə qayıdaydı o yaz gecəsi ,*
*Yenə nurlanaydım baxışlarında .*
*Ömrümün o gözəl ayaz gecəsi ,*
*Qəlbimə axaydı göz yaşların da .*

*Yenə qayıdaydı o yaz gecəsi*
*Mənə zillənəydi o qoşa ulduz.*
*Xoşbəxt taleyimin o saz gecəsi ,*
*Baxıb qısqanaydı bizi qonşu qız.*

*Yenə qayıdaydı o yaz gecəsi ,*
*Saçların üzümə kölgə salaydı.*
*Sənə ürəyimi açanda , gülüm*
*Yarpaqlar ahəstə pıçıldayaqdı.*

*O aylı gecənin ulduzlarından ,*
*Qopardıb telinə düzəydim , yenə*
*Şikarım olaydın ovçun olaydım ,*
*Gəlib keçidini kəsəydim yenə.*

### Qadir Allah

*Qadir Allah , qaytar məni kəndimə ,*
*Bir gözəlin üzüyünə qaş olum*
*Gedim çıxım öz bərəmə ,bəndimə,*
*Tər güllərin ləçəyində yas olum.*
*Orda göz açmışam fani dünyaya*
*Oranın payızı , qışı gözəldir.*
*Orda boylanmışam Günəşə Aya*
*Oranın torpağı , daşı gözəldir.*

*Orda cücəribdi ilk məhəbbətim*
*Sevdimin qanadı sərtləşib orda*
*Orda şirinlənib sözüm söhbətim*
*Nənəm nənələrlə dərdləşib orda*

*Bir zaman yarımçıq naşı olanlar*
*Qaşı düzəldəndə gözü tökdülər*
*Təkcə öz hayına qalan nadanlar*
*Üstünə " Qaçqınlıq" tozu tökdülər.*

### Qisas qiyamətə qalmasın

*Mən nəyə qadirəm , bilmirəm nəyə ,*
*Bir ovuc torpaqda ola bilmədim*
*Mənim haqqım yoxdu deyib gülməyə,*
*Yurdu yağılardan ala bilmədim.*

*Məni bağışlamaz Dədə Ələsgər,*
*Hələlik ustadım intizardadı .*
*Məni bağışlamaz açılan səhər ,*
*Ulu Zəngəzurum hələ dardadı.*

*Hələlik çox yerdə göyərmir sözüm,*
*Hələlik boy atmır bağımda bitən*
*Özüm qalxmalıyam Cihada özüm*
*Yadların əlində didilir Vətən!*

*Canımı verəcəm yüzünə qurban ,*
*Qoy yüzü yaşasın yurd -yuvasında.*
*Yaxın gəl el oğlu , gözünə qurban,*
*Bəsdir yaş axıtdıq elin yaşında.*

*Əsgər toqqaını bir az da bərkit*
*Götür tüfəngini döyüşə gedək*
*Vətəni torpağı namusu dərk et ,*
*Nətavan xanımla görüşə gedək.*

*Hoydu igidlərim düşmənə qarşı ,*
*Qisas qiyamətə qalmasın gərək .*
*Vətən torpağının bir qarışı da,*
*Yağı tapdağında olmasın gərək.*

### Qayıt

*Hey deyirsən ora gedim , ay bala ,*
*Bu çağımda hara gedim , ay bala .*
*Gəl çiynində gora gedim , ay bala ,*
*Ağrın alım üzü sulu qayıt gəl.*

*Qayıt kəndimizə yurd talan olur,*
*Silahlı əsgər ol cən də bu gündən .*
*Çiçəkli çəmənlər yağıya qalır ,*
*Səni bağışlamaz anamız Vətən.*

*Səni bağışlamaz bu torpaq , bu su,*
*Biganə olmaqdan əl götür oğul.*
*Qarğıya bilmirəm sözün doğrusu,*
*Yerdən meyidimi gəl götür, oğul.*

*Bu torpaq müqəddəs anadır ana,*
*Bu torpaq can verir canlıya cana.*
*Dərdin alım , yubanmadan qayıt gəl .*
*Pir deyib sən yapış Azərbaycandan.*

*Bu ana harayı çatmırmı sənə,*
*Elin dar günüdür , yaman günüdür.*
*Ölmək şərəflidir Vətən yolunda,*
*Tez qayıt , tez qayıt , aman günüdür.*

---

# Yaralı döyüşçünün son xahişi, 7 gün erməni əsirliyində və "Bənövşə" etirafı...

**Yəqin bütün kəndlərdə beləydi: 4-5 qız bir yerə yığılanda kəndin yaraşıqlı, gözəgəlimli, subay oğlanlarını müzakirəyə qoyurdu. Kəndimizdə "müzakirə obyekti" olan oğlanlar çox idi. Amma Bayram subay olduğu müddətdə ən çox müzakirə olunanlar sırasındaydı. Uca boyu, qapqara gözləri ağbəniz siması, utananda isə azacıq qızaran yanaqları, gülümsəyən siması... Elə bil anası Əntiqə xalanın tam oxşarıydı. Təkcə bığ məsələsində Əntiqə xaladan seçilirdı. Elə Əntiqə xala da 3 uşağın sonbeşiyi olan Bayramı çox sevirdi. Böyük oğlu Sahib və qızı ata nəvazişi görmüşdülər, Amma Bayram atası Fətiş kişinin qayğısını doyunca duymamış tale onları ayırmışdı. Atasının ölümündən sonra anası onları çox əziyyətlərə qatlaşaraq böyüdüb, boya başa çatdırmışdı. Qəribə idi, balaları da eynən Əntiqə xalanın özü kimi ata nəvazişinə həsrət, yetim böyümüşdü.**

### "Əlaçı" Bayram, sinifdəki bəstəboy qız...

İndi sizə Əntiqə xalanın yetimçiliklə, minbir əziyyətlə böyütdüyü balalarından, xüsusən yaraşıqlı, boy-buxunlu, qız kimi abırlı-həyalı, sakit təbiətli Bayramdan söhbət açacam. Bayram Fətiş oğlu Həmidov 1965-il də Ağdam rayonunun Baş Qərvənd kəndində anadan olub. 1972-ci ildə həmin kəndin tam orta məktəbinə qədəm qoyub . Əlaçı olub. Müəllimlər əlaçı olduğuna görə, onu ön partalarda oturmağı tövsiyyə eləsələrdə, Bayram dodağının altında"orda oturmuram " deyib mızıldanar, axırıncı partada oturan qohumu olan bəstəboy, şirin danışan qızın yanındakı stuldan qalxmazdı. Sinif yoldaşları Bayramın bu hərəkətinə aldan-altdan gülür, pıqqıldaşardı. O, "Bəstəboy", şirindil qız uşaqların eyhamından utanar, başına aşağa salar, qıpqırmızı qızarardı. Bayramın stoldan qalxmadığını görəndə isə özündən çıxardı: -Dur mənim yanımdan, mən sənnən oturmuram...

**-Durmuram! Oturacaqsan!**

**-Oturmayacağam!**

**-Oturacaqsan!**

**Axırda müəllim özünü gülməməyə, ciddi tutmağa çalışaraq:- Ay qız qoy, otursun, ....Bayram otur! -deyirdi və sinfə yenə pıqqıldaşma düşürdü.**

### Bir dəstə bənövşə: Bayramın etirafı

"Bəstəboy" hiss etmişdi, bilirdi ki, Bayram onu qoruyur hamıdan, hətta müəllimin ona güldən ağır söz deməyinə belə razı olmur. Qız dərsə gəlməyəndə Bayram sinfə sıxmır. Dərsdən çıxan kimi minbir bəhanə fikirləşib qohumu olan "Bəstəboy"gilə gedir, dərsə gəlməməyinin səbəbini öyrənib gələrdi. Səhəri isə sinif rəhbərinə birinci o bildirər di ki,"Bəstəboy" xəstələnib. ona görə dərsə gəlmir. Bir sözlə, sinifdə hamı bilirdi ki, ""Bəstəboy" ancaq Bayramdan sorulur. 10-cu sinif də oxuyanda həmişəki kimi bir yerdə dərsdən çıxardılar. Bir gün yol gedərkən, "Bəstəboy" bağçalarının bənövşəyə bələndiyini deyir.

***Bayram bənövşəni çox sevdiyini, sabah ona bir dəstə yığıb gətirməyi "Bəstəboy"dan xahiş edir. Səhəri gün, qız bənövşə dəstəsini sinifdə Bayrama verəndə yenə uşaqların arasında pıqqıldaşma düşdü. "Bəstəboy" uşaqların xısın-xısın gülüşündən pərt olaraq keçib yerində oturdu və başını aşağı dikdi. Yəqin ki,"Bəstəboy"un pərt olmasını Bayram götürə bilmədiki, sinif yoldaşlarına sarı dönüb amiranə səslə dedi:- Nədi, nə gülürsünüz, bənövşə mənim çox xoşuma gəlir, "Bəstəboy" da yığıb mənə gətirib, artıq bənövşə mənlikdi". Müəllim sinfə girməsəydi, bəlkədə uşaqlar hələ çox pıqqılşacaqdılar.***

### İşləmək, ev almaq, daha sonra isə... arzular, arzular...

Bayram 1982-ci ildə orta məktəbi bitirib ali məktəbə sənəd verdi. İmtahandan kəsiləndən sonra isə1983-cü ildə sovet ordu sıralarına hərbi xidmətə yollandı. Ordan hamıya məktub yazırdı. Bir tək "bəstəboy"dan başqa. Amma qohum idilər axı, əlinə bəhanə düşmüşdü. Qohumlarıgilə də ümumi sözlərlə məktub göndərirdi. Həm də tez-tez. 1985-ci ildə xidmətdən geri dönəndə ilk ağlına gələn iş yenə də təhsilə önəmi idi. Artıq Bakıdan əlini üzdüyünə görə, sənədlərini Mingəçevir Politexniki Texnikumuna verdi və daxil oldu. O vaxt artıq "Bəstəboy" da Şəkidə texnikumda oxuyurdu. "Bəstəboy" bir gün dəhlizdə durub, pəncərədən çölə - yağan yağışa tamaşa edirdi Birdən məktəbin darvazası ağzında var-gəl edən adama gözü sataşdı. Diqqətlə baxdı, Bu Bayram idi."Bəstəboy" özünü qaranəfəs məktəbin darvazasına yetirdi. Yağışın altına başdan ayağa qədər islanmış qohumunu görəndə bilmədi gülsün , ya ona ürəyi yansın. Təəccüb qarışıq:

**-Bayram burda nə gəzirsən?-dedi.**

**- Elə burdan keçirdim, dedim görüm neyniyirsən?**

**- Bayram, sən Mingəçevirdə oxumursan? Burdan nə təhər keçə bilərsən?**

Bayram haqlı verilən sualın qarşısında nə deyəcəyini bilmədi, "Bəstəboy"u bir az ciddi-ciddi süzüb: Əşşşii eeeyyy , sən də..." - deyib ordan uzaqlaşdı.

Texnikumu bitirəndən sonra Bayramın təyinatını Mingəçevir Yol Təmiri Maşınları Zavoduna verdilər. Artıq "Bəstəboy"da texnikumu bitirib gəlmişdi axı...







### Qarabağda yaşanan dəhşət...

Amma hamı səksəkədə, təşvişdə idi. Nəinki Ermənistanda bir azərbaycanlı qalmışdı, hətta Dağlıq Qarabağın ermənilər yaşadığı rayonlarda, kəndlərdə azərbaycanlılar qovulmuşdu. Hər gün faciə, hər gün qan-qada, hər gün göz yaşları...Bəli, torpağımızda məskən salıb, çörəyimizlə dolanan ermənilər xalqımıza qarşı amansız müharibəyə başlamışdı. Xalqın qeyrətli oğullar kimi Bayram da silaha sarıldı. Asan işini, rahat dolanışığını atıb Qarabağ bölgəsinə müharibəyə gəldi. Əntiqə xala anladı ki, bu müsibətlərdən sonra Bayramı evləndirmək, toy etmək müşkül məsələyə çevriləcək. Ona görə də, vaxtı ilə "saqqızını oğurlayıb" istədiyi qızın adını biləndən sonra qohum-əqrabanı yığıb "Bəstəboy"gilin qapısına elçi getdi. Nişan mərasimi də oldu. Amma Əntiqə xala nə qədər dil töksə də, Bayramı cəbhədən geri çəkib evləndirməyə razı sala bilmədi. Axı hardan bilsin ki, Bayramın qolları üstündə neçə dostu, silahdaşı can verib, arzusu ürəyində, qanı yerdə qalıb, Bayram döyüşlərin birində ağır yaralandı Sarıcalı hospitalında müalicə aldı. Yaraları azacıq sağalan kimi yenə doğma batalyona döndü.

### Nəşi 7 gün erməni əlində qalan döyüşçü...

**Silahdaşı Azər Bağırov deyir: Ağdam yerli batalyonuda, komandir Çəfərin (Yavər İmamalıyev) rəhbərliyi altında yeni hücuma hazırlaşırdıq. Səhər saat 5-də Kosalar kəndinə hücum olmalıydı. Əməliyyatla bağlı bizi- taqım komandirlərini Çəvahirliyə qərargaha çağırmışdılar. Elə yenicə gəlmişdik. Bayram bizim "blindaj"a gəldi. Çöldən kimdənsə soruşdu ki, Azər qayıdıb? "Bayram, gəl içəri"-dedim. Gəldi. O qədər qüssəli idi ki, elə bil hər şeyi hiss etmişdi. Soruşdum: Xeyirdimi, niyə gəlmisən, axı sən hələ tam sağalmamısan.... Dedi, səndən bir xahişim var, sabahkı hücuma Ataşı aparma. Biz hamımız subayıq, onun iki uşağı var. Bizə bir şey olsa, arxada ağlayanımız yoxdur. Onun iki körpəsi var-deyib getdi. Səhər saat 5- də əməliyyat başladı. Hücum 3 cinahdan planlaşdırılmışdı. Bizim rota sağ cinah idi və tapşırılan ərazini tutduq. Erməniyə sağ cinahdan gələn köməyin qarşısını aldıq. Bayramgilin rotası ortadan yaxınlaşdılar. Ancaq nədənsə, sol tərəf hərəkətə keçmədi. Ermənilər boş qalan sol tərəfdən orta cinahın döyüşçülərinin arxasına keçib, onları mühasirəyə saldılar. Xeyli itki verdik. İlk vurulan Bayram oldu. Yaxşı ki, gecə qərargahdan qayıdanda bir PDM -lə təmin olunmuşduq. Əgər o PDM bizə kömək etməsəydi, itkimiz daha çox olacaqdı. Bayramın nəşi döyüş zonasında qaldı. Çıxartmaq mümkün deyildi. Mərhum komandir Yavər İmamalıyevin - Cəfərin yanına getdim. İcazə istədim ki, gecə döyüş meydanında qalan uşaqların meyitlərini çıxaraq. Komandir əvvəl razı olmadı," Çox risklidir, yenidən itki ola bilər"-dedi. Dedim: -Komandir, Bayram mənim həmkəndlimdi, mən sabah o kəndə necə qayıdacağam, onun anasının üzünə necə baxacağam".**

Bir təhər razılıq əldə etdim. Gecə etibar elədiyin uşaqlardan da 12 nəfər götürüb döyüş meydanına tərəf getdik. Mən təxminən Bayramın vurulduğu yeri bilirdim. Bunu mənə ratsiya ilə demişdilər. Meyidə təxminən 20-30metir qalmış ermənilər gəlişimizdən düyuq düşdülər. Gülləni üzərimizə yağış kimi yağdirdilar. Uzandığımız yerdə iki saat üzüquylu qaldıq. Bu dəfə həmin əraziyə od vurdular. "Ger qayıdırıq" əmri verdim. Özum, döyüşçülərdən Əbülfət, birdə Şakir (Bayramlar kəndinin müdafiəsi zamanı şəhid olub, meydi orda qalıb) sürünərək arxa girdik. Nə qədər çalışdıq, alov imkan vermədi ki, meyidə yaxınlaşaq. Səhəri gün artıq ermənilər meyidləri götürmüşdülər . Təxminən 7-8 gundən sonra komandir Cəfər çox çətinliklə meyidləri ermənilərdən geri ala bildi.

***Ermənilər bizim döyüşçülərin nəşini qaytararkən, meyitləri təhvil verən erməni komandir Bayramın cəsədini göstərib deyir: Biz belə yaraşıqlı, qüsursuz oğlanları döyüşə göndərmirik. Onları arxada saxlayırıq ki, uşaq artırsın, genefondumuzu zənginləşdirsin.***

Yadımdadır... 1994-cü ilin 2 mart günü ... Qərvənd qəbiristanlığında izdiham vardı... Həmin gün 15-ə yaxın döyüşçü o qəbiristanlıqda torpağa verildi. O vaxt yeniyetmə idim, yas mərasiminə getmək "hüquq"um yox idi. Amma anam yasdan gələndən sonra bir həftə özünə gələ bilmədi. Deyirdi ki, Bayramın anası Əntiqə nişan xonçalarını qarşısına düzüb onlara ağı deyir, yas mağarının ortasında durub heydən-taqətdən düşənə qədər balasını haraylayır, sonra isə özündən gedirmiş. Toyu üçün alınmış bütün xonçalar, xüsusən bəylik kostyumu qəbrinin üstünə düzldüyünü də eşitdim.

### "Yara oldun ürəyimin başında..."

Bayram kimi doğma kəndinin də taleyi qaraldı:kənd ermənilərin əsirliyinə, camaatı isə çöllərə düşdü. "Bəstəboy" necə oldu? - deyə düşünürsünüz eləmi?Uzun müddət depressiyadan çıxa bilmədi, müalicələr aldı, tez-tez həkim nəzarətinə düşdü. Çox sonralar ailəsinin, yaxınlarının, xüsusən, Əntiqə xalanın təkidi ilə ailə qurdu. Amma... o da xoşbəxt olmadı. Qəlbində yara olub, ömrü boyu onu incidəcək bir adı öz övladına qoyacağını düşünüb ərə getdi. "Bəstəboy"un bu arzusu da gözündə qaldı. Yaxın günlərin birində bir məclisdə "Bəstəboy"la qarşılaşdım. "Aradan 26 il keçdi, yəqin Bayramı unutmuş olarsan?"- deyə soruşdum. Bax elə o an "bir cüt çeşmə" danışdı. Bir də pıçıltılı dodaqlar: Yara oldun, ürəyimin başında, vermədim təbiblər yarmağa, səni, ömrüm oldun, gözlərimin yaşında..."

Əntiqə xalanın digər oğlu Sahibin bir oğul övladı oldu. Hamının ürəyindən keçdi ki, onun adını Bayram qoysunlar. Təkcə Əntiqə xala razı olmadı. Cavan yaşında həyata vida etmiş həyat yoldaşının adını qoydu körpəyə. Elə bil ürəyinə nəsə dammışdı. Fətiş nəinki, ata anasının yeganə ümüdi, həm də Əntiqə nənəsinin təsəllisi oldu...Əntiqə xalanın bir gözü Bayram üçün ağlayanda, digər gözü Fətişin boy-buxununa baxıb sevinirdi... Kaş ki...

2 il əvvəl avtomobil qəzasında 25 yaşlı Fətiş Həmidov da həlak olandan sonra ...

**P.S:** ***Bayramın kəndi 26 ildir düşmən əlindədir, özü şəhidlik zirvəsində narahat ruhuyla yol gözləyir, qisas yolu, qələbə yolu, azadlıq yolu... Allah bizə səbr verməyə***

**Əntiqə RƏŞİD**

Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

№ 101 (2135) 8 sentyabr 2020-ci il

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# XANLIĞIN QAPISI

**Azərbaycan tarixinin önəmli səhifələrindən biri də bu məmləkətin arxitektura, tikinti, ümumiyyətlə, daş yaddaşımız olan abidələridi. Bu daş yaddaşımız sirli olduğu qədər də uzun ömürül və bir də tarixə bizi tikib-qurmaq qabiliyyətimizi köçürən digər xalqlara bu sahədəki bacarığımızı, məharətimizi nümayiş etdirən bir nümunədir.**

Yəni həmin daş yaddaşımız həm danışır, həm də göstərir. Bax, bu mənada bizim tariximizin ayrıca bir bölümü olan qalalar təkcə mühafizə üçün, təkcə sərhəd üçün və nəhayət tikinti üçün nəzərdə tutulmayıb. Yəni bu qalaların hər birinin öz tarixi olmaqla bahəm, həm də bu qalaların hər birinin öz missiyası olmuşdu. Üstəlik, bu qalaların hər biri həm də arxitektura nümunəsi kimi möhtəşəmdir. Tariximizin qala abidələri sırasında Qarabağ bölgəsinin abidələrinin özünəməxsus yeri var. Doğrudur, məkrli düşmənlərimiz zaman-zaman Qarabağın, xüsusilə Dağlıq Qarabağ ərazisindəki abidələrimizi erməniləşdirməyə, özününküləşdirməyə cəhd göstəriblər. Hətta ermənilər bunun üçün tarixi saxtalaşdırmaqdan çəkinməyiblər və onlar abidələr üzərində bərpa işləri aparmaq adı altında "erməni izləri" qoymağa, xaç işarələri çəkməyə cəhd göstəriblər və bəzən bununla da tarixi abidələrimzə köklü zərbələr vurublar. Bu başqa bir mövzudur. Yəqin ki, buna da qayıdacağıq. Bu gün isə Qarabağ xanlığının şərq qapısı olan Əsgəran qalasından söz açırıq.

***Tarixi mənbələrə üz tutanda məlum olur ki, hələ XVIII əsrdə Pənahəli xan özünə aid xanlığın sərhədlərində böyük tikinti işləri aparmaq barədə göstəriş verib. Məhz onun göstərişilə Əsgəran qalasının tikintisinə başlanılıb. Və bu qala bugünkü Ağdam rayonundan, daha doğrusu, rayon mərkəzindən 12 km bir məsafədə yerləşir. Həmin qala Şuşa şəhərindən 24 km, Xocalı şəhərindən isə 5 km bir məsafədədir. Qalanın tikildiyi ərazi Qarqar çayının sağ və sol sahillərindəki dağlıq hissəsindən keçir. Özü də bu qala elə bir formada tikilibdir ki, Qarqar çayının həmin hisədə eni təqribən 500 metrə yaxındır.***

Yəni çayın 500 metrə yaxın olan bu yatağını qalanın divarları əhatəyə alıbdı və keçilməz dərə hissəsinə qədər gedi çatıbdı. Bunu da qalanı tikənlər bilərəkdən ediblər. Çünki həmin keçilməz hissəni nəzarətdə saxlamaq mümkün idi. Bundan başqa qala divarlarının eni, onun bürcləri, həmçinin müşahidə yerləri göstərir ki, Əsgəran qalası xanlığın sərhədini qorumaq, onun təhlükəsizliyini təmin etmək üçün bir növü sərhəddi, səngərdi. Elə yerin relyefinə uyğun bir şəkildə tikilmiş bu qalanın mühafizəçilərinin yerləşdiyi otaqlar da elə bir formada tkilib ki, o, qalaya bir kompleks görkəmi də verir. Hətta bu otaqlar ikiqat daş otaqlardan ibarətdir.





***Hətta istehkam bürcləri də davamlı, dözümlü olması üçün ikiqat daşdan hörülmüşdü. Əsgəran qalasının bütün bürcləri ikimərtəbəlidi və bürclərdən bir-birinə keçmək üçün dəhliz də hörülmüşdü. Ümumiyyətlə, bu qalanın özündə bir müdafiə vəziyyətini, müdafiə görkəmini ifadə edən tikinti üslubu ilk baxışdan diqqəti çəkir və aydın olur ki, qalanın sol sahil hissəsi düzbucaqlı formasındadı. Və bu da onun istehkam qalası olduğunu bir daha büruzə verir. İstər Qarqar çayının, istər həmin relyefin özünün yaratdığı gerçəklikləri nəzərə almaqla tikilən Əsgəran qalası həm də bir qapalı həyət formasını da özündə ehtiva edir. Demək olar ki, bu qaladakı bürclər özü-özlüyündə döyüşçünün lazımi anda öz vəzifəsini yerinə yetirmək üçün rahat ola biləcək kvadrat şəkilli istehkamdı. Həmçinin qalanın köndələn divarlarında üstü tağlı darvazalar da var. Ümumiyyətlə isə qalanın hər iki divarı yalnız çayın özünə qədər gedib çatıb. Və istinad etdiyimiz tarixi ədəbiyyatda göstərilir ki, "istehkamın sol sahilindəki altı bürcün hər biri kiçik taxt-tavanla iki mərtəbəyə ayrılır, üçüncü mərtəbə yalnız mazğallara qədər müdafiə olunur".***

Göründüyü kimi Əsgəran qalasının müdafiə xarakterli olduğu birmənalıdı. Və buradakı qala divarının hündürlüyünün 9 metr, qalınlığının 2 metrdən ibarət olması da onun davamlı olmağa hesablandığını göstərir.

Maraqlı həm də burasıdır ki, qala divarlarının üst hissəsi çox mükəmməl işlənmiş çay daşlarından tikilmişdir. Təəssüf ki, bu günun işğal altında olan torpaqlarımızdakı digər tarixi abidələrimiz kimi Əsgəran qalası da özünün əsirlik dövrünü yaşayır.

Ona görə də ermənilər bizim mədəniyyət və arxeoloji abidələrimizi istədikləri şəkilə salmağa, istədikləri formada təqdim etməyə bu gün açıq şəkildə cəhdlər edirlər. Dövrü mətbuatın, eləcə də beynəlxalq təşkilatların vasitəsilə əldə edilmiş bilgilərdən məlum olur ki, ermənilər bu gün Əsgəran qalasını Mayrabert kimi göstərirlər. Bu adı da qalanın yaxınlığında olan erməni kəndinin adından götürüblər. Amma qondarma və yalançı məlumatlara istinad edən ermənilər unudurlar ki, Əsgəran qalası barəsində kifayət qədər sanballı elmi, tarixi məlumatlar mövcuddur.

Əgər biz onlara üz tutsaq, onda birmənalı şəkildə görərik ki, qalanın tikintisi ilə bağlı iki fikir var. Onlardan birinin iddiasına görə, qalanı Mehrəli xan, digər bir qisminin isə Pənah xan tərəfindən tikildiyini iddia edirlər. Məsələn, Rzaqulu bəy Mirzə Camal oğlunun "Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri" əsərində göstərir ki, "mərhum İbrahim xanın yadigarlarından üçüncüsü hər iki Əsgəran qalasıdır. Bu qalaları hicri 1203, miladi 1786-cı ildə tikdirmişdir".

**Digər tarixi Mirzə Vəli bəy Baharlı isə özünün "Əhvalati-Qarabağ" əsərində göstərir ki, "Pənah xan qalanı tamam edib və Pənahabad adı qoyub. Sonra yenə fikrə düşüb ki, qaladan bir neçə ağac aşağıda bir qalaça qoşundan ötrü təmir etsin. Belə ki, həmin Əsgəran adlanan qalaçaları ki, biri Qarqar çayının o tərəfində və birisi digər tərəfində təmir olub, həmin qalaçaları təmir elədi və bir cəm qoşun həmişə qalalarda durarmışlar".**

**(ardı gələn sayımızda)**

***<u>ƏBÜLFƏT MƏDƏTOĞLU</u>***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

# Tanrıya göz vuran şair



*<u>Müşfiq Şükürlü</u>*

**Yaşı 30-u keçənlərə gənc şair demək olarmı? Emin Piri 86 təvəllüddür. Əgər insan həyatının yaş mərhələlərini əsas götürsək, yox. Emini cavan şair adlandıraq gərək. Mənə qalsa bunun bir önəmi yoxdur. Önəmlisi odur ki, Emin Piri şeir yazma texnikasına çoxdan bələddir.**

Azərbaycan poeziyasında elə misralar var ki, onların üzərinə Emin Pirinin adı yazılıb, nəfəsi deyib. Başqa sözlə, hərhansı məhsulu emblemindən tanıdığımız kimi Eminin şeirlərini də misraların düzülüşündən, səsindən, fikrin, duyğunun ifadə tərzindən tanımaq çətin deyil.

Onu müharibə şairi kimi tanıyırlar daha çox.Amma mən belə təqdimatın tərəfdarı deyiləm. Yazıda Emin Pirinin müharibə şeirlərindən də bəhs edəcəyik. Söz yox. Emini təkcə müharibə şairi kimi təqdim etməyi isə düzgün saymıram.

Çünki çağdaş Azərbaycan poeziyasında elə psixoloji, romantik, lirik şeirlər var ki, onların müəllifi məhz Emin Piridir.

***

Şair yeni tapıntılar etməli, təzə metaforalar yaratmalıdır. Emin Piri yaradıcılığı bu baxımdan bütöv və əhatəlidir. Onun şeirlərində obrazlı yanaşma güclüdür. Bənzətmələrində poetik təsirlilik açıqca sezilir.

*qar ağlayırdı uşaqlarçün,*
*can verirdi*
*tankların*
*qanlı tırtılları altında*

Başqa bir nümunəyə baxaq.

"Qız qalası"bu mövzuda yazılmış ən obrazlı şeirlərdən biridir. Səhər günəşi fonunda Xəzər dənizi və Qız qalası gözlərimiz önündə canlanır. Şair həm mənzərə çəkir, həm obraz yaradır. Qız qalasını estetik təbiət hadisəsi kimi tərənnüm edir.

*səhər*
*Qız qalası*
*üz-gözündə dənizin izi.*
*Günəş boylanar*
*qızarar öpüş yeri,*
*qızarar qalanın qızı...*
*əsrlərin daş yaddaşında*
*süzər qolları*
*dövrəsindəki qızlarla*
*yallı getmək istəyər -*
*qollarını açan olsa.*
*Bəlkə də qoşulub gedər*
*Götürüb qaçan olsa.*

***

Emin Pirinin şeirləri lirik hekayələrdir."Sağ qalan varmı?!" şeirinə diqqət edək. Şeir fevral şaxtası xəbəri ilə açılır.

*Əsgər sinəsi axtarır*
*isinməyə*
*fevral şaxtasından*
*üşüyən güllə*

Emin müharibəyə insan taleyi kimi baxır və ona lirizm qatır. Qışın sərt havası barədə qısa girişdən sonra şair mövzunu bir az daha açır. Finalda hazırladığı surpriz misraya (duyğuya!) bir az daha yaxınlaşır.

*Hər əsgər tabutu*
*bir ağ gəlinliklə köçər...*
*əsgər deyil,*
*sevən qızın arzularını*
*götürüb gedər*
*hər atılan güllə.*

Şaxtanı isə şair havanın temperaturu, ya da ağla ilk gələn "qar", "soyuq" sözləri ilə izah etmir. Əvəzində bir hekayəçinin alətləri ilə silahlanır. Dərin və incə duyğular oyadan canlı mənzərə yaradır. Bir qız, bir soba, uzaqlarda bir səngər, sobaya atılan odun və təbii dialoqlar. Çölün şaxtasını bir otağın içindən (içində!) öyrənirik.

*soba yanında*
*gecəyarısı bir qız*
*məktub yazır səngərə*
*anasının yarıyuxulu*
*"qızım, yatmamısan?"*
*sualına diksinib*
*"üşüyürəm, ana,*
*odun atıram sobaya"...*

Bu sadalananları Emin lirik hekayəyə çevirib. Amma onları verməkdə bir məqsədi var şairin. Sanki, hər şey fantastik sonluq üçün lazım imiş.

*Daha*
*gecələri oyaq qalmağa*
*soba yanında*
*məktub yazmağa,*
*yalandan üşüməyə*
*sobaya odun atmağa*
*ehtiyac yoxdu...*
*səngərdən qıvrıla-qıvrıla*
*boğuq səsi gəlir*
*tağım komandirinin:*
*kimsə sağdı?!*

***

Məncə, Eminin bütün şeirlərinin bir ortaq tərəfi var. Bu, Emin Pirinin üslubi özəlliyidir: Nağıl sadəliyi və onun musiqili atmosferi! Bizə Əli Kərimin poeziyasından da, Ekzüperinin "Balaca şahzadə"sindən də tanış və doğmadır həmin aura. Amma bu, ayrıca üslubi keyfiyyət kimi seçilir Emində. Emin Piri poeziyasının möhkəm poetik kökləri olduğunu düşünürəm.

***

"Poetik köklər" demişkən. Şairin poetik təfəkkürü barədə bunu qeyd etmədən keçmək olmaz. Eminin şeirlərində zərif ironiya qatı da var. Bu, bəzən özünü tamam açıq, bəzənsə yarıgizli büruzə verir.

*Əsəbimi soyutmaq istəyirəm*
*bir şeylə:*
*Təpik vurasan yer kürəsinə*
*Marsla Venera arasından keçə*
*sən də sevinəsən "qol vurdum" deyə.*

***

Onun heca şeirləri də var."Buludları kim sağır?!"Eminin hecada yazdıqlarına ən yaxşı nümunələrdən biridir. Sözsüz ki, Emin Piri sərbəstdə daha uğurludur. Götürək"Ölüm kölgəsi"ni.

Gənclik depressiyasının məhsuludur, yəqin ki. Hətta bu ciddi məzmunlu( yaxud təbiətli!) şeirdə də Emin şirin ironiyasından qalmır.

Şair üçün Tanrının varlığı problematik mövzu ola bilər. Varmı-yoxmu sualı onun fəlsəfi düşüncələrinin, ya da yaradıcılığının ana xətti kimi fərqlənə bilər.

Amma Emin Piri üçün Tanrının varlığı-yoxluğu artıq üçüncü məsələdir. O, bir gəncin daxili sarsıntıları arasında Tanrı adlanan naməluma göz vururmuş kimi atmaca atır.

Eminin "Ölüm kölgəsi" şeirindən aşağıda verdiyim parça, məncə, insanın mənəvi iztirabları baxımından onun ən yaxşı şeirlərindən biridir.

Həyata üsyan, ölümlə barışıqlıq var bu şeirdə. Amma ölüm bütün üzləri ilə həyatın özüdür. Şair ölümə bir ikinci can verib. Onda həyat əlamətləri tapıb.

*Aldadasan hamını...*
*Elə özünü də,*
*Tanrını da,*
*Onun yazdığı*
*75 illik ömrü də.*
*28 yaşında atasan özünü*
*dənizin qolları arasına.*
*Cırasan alın yazısının qalan*
*səhifələrini,*
*balıqlar öpə gözündən,*
*yosunlar anantək bələyə səni.*
*Allah köks ötürüb deyə:*
*"Bağışla.*
*bağışla məni!..."*

***

**Emin 34 yaşındadır. Mənə elə gəlir, istedadla yazılmış yeni şeirlər müəllifi kimi ona minnətdar olmalıyıq. Təşəkkür etməliyik ki, Azərbaycan poeziyasını zənginləşdirib. Ona yeni məna verib. Ümid edirəm, Emin Piri bundan sonra da hər yeni kitabı, hər uğurlu şeiri ilə ədəbiyyatçıların yazı və söhbətlərində qayıtdığı, bəhs etdiyi müəllif olaraq qalacaq.**

# Bakı, Sumqayıt və Abşeron məktəblərində əyani təhsil həftədə 2 dəfə olacaq

**Xüsusi karantin rejimi dövründə təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili barədə Nazirlər Kabinetinin Qərarına uyğun olaraq Təhsil Nazirliyi tərəfindən tədris planları təsdiq olunub.**

Adalet.az-ın məlumatına görə, Təhsil nazirinin müvafiq əmrinə əsasən, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunun ümumi təhsil müəssisələrinin fəaliyyəti əyani olaraq həftədə 2 dəfə, digər şəhər və rayonlarda isə əyani formada həftədə 3 dəfə xüsusi tədris planlarına uyğun təşkil olunacaq. Ümumi təhsil müəssisələrində dərs məşğələləri I-IV siniflərdə sentyabrın 15-dən əyani və distant (məsafədən), V-IX siniflərdə sentyabrın 15-dən distant, oktyabrın 1-dən əyani və distant (məsafədən), X-XI siniflərdə sentyabrın 15-dən distant, oktyabrın 15-dən əyani və distant (məsafədən) formalarda başlayır. Dərslər epidemioloji vəziyyətdən və məktəbdə şagird sıxlığından asılı olaraq müəyyən edilmiş qaydada təşkil ediləcək. Həmçinin, dərs cədvəllərinin tərtibatı təhsil müəssisələri tərəfindən həyata keçiriləcək.

Valideynlər övladlarının hansı formada təhsilə cəlb olunması ilə bağlı seçim edə biləcəklər. Eləcə də ibtidai sinif şagirdlərinin valideynləri sentyabrın 11-dən övladlarının əyani tədrisə cəlb olunmaları ilə bağlı məlumatı birbaşa təhsil müəssisələrindən əldə edə biləcəklər.

**Ümumi orta və tam orta təhsil səviyyələrində oxuyan şagirdlərin də virtual dərs cədvəlləri həmin tarixdən müəyyənləşəcək.**

# Mahirə qane olmayıb, Maksimi "yandıranlar"

**Əgər bir obyektə qarşı aqressiya, hiddət, tənqid varsa, bundan qurtulmağın da bir neçə yolu var.**

Ya həmin tənqidin mənbəyini məhv edib, daimi susduracaqsan, ya kompromisə gedib, razılaşacaqsan, ya başqasına yönləndirəcəksən, ya da həmin aqressiyanı bir neçə istiqamətdə şaxələndirib parçalayacaqsan, necə deyərlər özün üçün bufer zona, dalğaqıran yaradacaqsan.

Millinin Lüksemburqla oyununun elə ilk dəqiqələrindən bəlliydi ki, AFFA da, baş məşqçi də yaxşıca tənqid, hətta deyərdim linç olunacaqlar. Hər nə qədər sosial şəbəkələrdəki fikirlər, obyektiv jurnalistlərin yazıları ordakıların çox qulağına olmasa da, istənilən halda niyə könül bulansın axı?

Bu dəfə tənqiddən qaçış, tamamilə başqa istiqamətə yönəltmək, ya da mənbəni məhv etmək mümkün olmadığı üçün ən uyğun yol kimi tənqid hədəfini parçalamaq, şaxələndirib zəiflətmək yolu tutuldu.

***Elə 25-ci dəqiqədə Mahir Emreli bu işdə birinci "könüllü" oldu. Oyun dayandığı vaxtda rəqibə zərbə vuran 10 nömrə birbaşa qırmızı vərəqə ilə meydandan qovuldu və onsuz da pis gündə olan yığmanı daha pis vəziyyətə saldı.***

Oyunun sonrakı axarında nələr oldu, gördünüz, yazıb başınızı ağrıtmaq istəmirəm, amma görünür Emreli könüllü tənqid hədəfi olmaq istəyi kimlərisə qane etməyəcəkdi. Mahir kimi şıltaq, ərköyün futbolçu AFFA üzərindəki qara buludları dağıdacaq qədər güclü "top atəşi" olmayacaqdı.

Deməli hədəfə qoymağa daha ciddi, daha sanballı fiqur lazım olacaqdı.



***Çox keçmədən, oyun bitən kimi o da öz ayağı ilə gəldi. Maksim Medvedevin məlum görüntülərinin bilərəkdən və ya bilməyərəkdən efirə verilməsi demək olar ki, AFFA üçün göydəndüşmə oldu. Sanki suda boğulan adama oksigen balonu uzatdın ki, al, bir az nəfəslən.***

Açıqlamanın üstündən heç iki dəqiqə keçməmiş müxtəlif rıçaqlar vasitəsilə sözügedən görüntülər sürətlə servis edildi və bir anda hiddətlənmiş, əsəbi, aqressiv, milli komandamızın biabırçı oyunundan cana gəlmiş kütlə yönünü Maksimə çevirdi. Əlbəttə ki, bu işdə onlara əl altdan yön verənlər, sakitcə istiqamət cızanlar da var idi.

Mənim Maksimi müdafiə etmək fikrim yoxdu. Lüksemburqa uduzmuş yığmanın oyunçusu meydanda necə oynamağından asılı olmayaraq, oyundan sonra belə laubali şəkildə yanaşırsa, onun müdafiə ediləcək heç bir tərəfi qalmır.

Amma dərhal sonra aparılan kampaniya, Maksimin kapitanlığından tutmuş azərbaycanlılığına qədər sorğulanması onu göstərir ki, artıq lazım olan bufer zona hazır idi.

Təsadüfi deyil ki, oyundan bir neçə saat sonra De Byazinin bərbad heyət seçimi, meydana buraxdığı ilk 11-lik, meydanda nə etmək istədiyini və hansı taktika ilə oynadığını bilməməsi, oyuna müdaxilə bacarıqsızlığı, qaş düzəltdiyi yerdə vurub göz çıxardan əvəzetmələri yox, Maksimin kapitan olub-olmaması, bundan sonra onu kimin əvəzləməli olduğu müzakirə olunurdu.

Öz qapısına qol vuran "Neftçi"nin oyunçusu Anton Krivotsyuk yox, meydana voleybol oynamağa çıxmış "Səbail"li Adil Nağıyev yox, məhz kadrarxası uğursuz bir açıqlaması sürətlə gündəmə oturdulan Maksim hədəf taxtasına çevrildi.

***AFFA-nın bir ətək pul töküb Azərbaycan pasportu verdiyi, amma dar məqamda millidən imtina edən Nazarov, Eddi, Əmir Ağayev və digərləri yox, bu ölkə futbolu üçün həmişə cani-dildən oynamış, ölkə adına əldə olunan 3-5 ciddi nəticənin əksəriyyətində imzası olan oyunçu "vurulur".***

Yuxarıda da dediyim kimi, artıq tənqid hədəfi bölünmüşdü, iradlar təkcə birbaşa AFFA-ya, onun əndrəbadi oyun oynadan məşqçisinə deyil, Maksimə, dolayısı ilə "Qarabağ"a da yönəldiləcəkdi.

**Millətlər Liqasının ilk mövsümünün sonuncu - Kosovo ilə oyununda da belə olmamışdımı?**

**Zaur XUDİYEV**
**sportinfo.az**

